# HƏFTƏ İÇİ

MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

www.hafta.az

№ 11 (3335) Çərşənbə axşamı / 2-3 fevral 2021-ci il Qiyməti 40 qəpik


# Prezident Mərkəzi Bankın sədrini tənqid etdi

***Prezident İlham Əliyev AzTV-yə müsahibəsində Mərkəzi Bankın sədrinin Şuşada təmsil etdiyi qurumun nümayəndəliyinin açılacağını bildirməsinə dair məlumatlara münasibətini açıqlayıb. Dövlət başçısı Mərkəzi Bankın sədrini sərt tənqid edib. "Mənim münasibətim buna mənfidir. Özü də mən deyim nəyə görə. Birincisi, bu, özbaşınalıqdır. Belə açıqlama veriləndə mütləq rəhbərliklə gərək məsləhətləşmə aparılsın. Azad edilmiş torpaqların bərpası ilə bağlı mənim tərəfimdən bir çox önəmli qərarlar qəbul edilib, qərargah yaradılıb. Qərargaha Prezident Administrasiyasının rəhbəri rəhbərlik edir. Mən demişdim ki, bütün təkliflər, bütün təşəbbüslər oraya göndərilməlidir. Çünki biz kim necə istəyir o torpaqları, əraziləri bərpa edə bilmərik. Biri filial açmaq istəyir, biri nə bilim başqa qurum açmaq istəyir.***



## Bu, yolverilməzdir və qəbuledilməzdir



Bu, yolverilməzdir və qəbuledilməzdir. Ona görə burada subardinasiya olmalıdır. Ucuz populyarlıq qazanmaq üçün, yaxud da ki, özü üçün hansısa bir ofis, yeni ofis yaratmaq üçün belə açıqlamaların verilməsi tamamilə qəbuledilməzdir və buna son qoyulmalıdır" - deyə dövlət başçısı vurğulayıb.

Prezident İlham Əliyev vurğulayıb ki, ikincisi, biz bütün işləri ardıcıllıqla edirik və mən bu ardıcıllıq haqqında dəfələrlə demişəm Azərbaycan xalqına hansı işləri biz görəcəyik ki, insanlar da bilsinlər:

"İlk növbədə, keçmiş köçkünlər, nə vaxt onlar qayıda bilərlər o torpaqlara. Birinci, minalardan təmizləmə. Bu, böyük bir prosesdir. Ermənilər bizə mina xəritələrini, mina sahələrinin xəritələrini vermirlər. Ona görə indi partlayışlar da tez-tez olur. Biz indi Minatəmizləmə Agentliyini yenidən formalaşdırırıq və onun fəaliyyəti daha səmərəli olacaq. Ancaq bu, müəyyən vaxt aparacaq. Mina təmizləməklə əlaqədar işlər əlbəttə ki, başa çatmalıdır. Ondan sonra ziyanın qiymətləndirilməsi. Biz əgər ziyanın qiymətləndirməsini etməsək, sabah biz təzminat davasında da uğur qazana bilmərik. Ona görə ki, ilk növbədə, yerli qurumlar bütün dağılmış evlərin pasportlaşdırılması aparılmalıdır, video, foto çəkilişlər, dron çəkilişləri, protokollaşma - hər bir binanın, hər kənddə yerləşən binanın, hər şəhərdə yerləşən binanın öz pasportu olmalıdır.

Bunu, bu məlumatı biz verəcəyik cəlb edilmiş beynəlxalq şirkətlərə, onlar özləri tədqiqat aparacaqlar, özləri monitorinq missiyaları həyata keçirəcəklər və onlar bizə Ermənistana qarşı açılacaq təzminat davasında kömək göstərəcəklər. Yəni, bu ardıcıllıq budur. Bu işlər görüləndən sonra infrastruktur layihələri icra edilməlidir.

Axı infrastruktur olmasa, orada insan necə yaşayacaq? Su yox, işıq yox, yol yox, yoxdur, necə yaşaya bilər? Ondan sonra evlər tikilməlidir. Mən artıq göstəriş vermişəm, artıq bizim qurumlar işləyirlər bütün şəhərlərin baş planları hazırlanır, özü də elə-belə yox. “Ağıllı şəhər” konsepsiyası, “ağıllı kənd” konsepsiyası. Bu, zaman tələb edir. Eyni zamanda, hər şey planlı şəkildə olmalıdır. Yoxsa biri oradan duracaq deyəcək ki, mən burada bunu tikəcəyəm, biri oradan duracaq ki, mən bunu. Kimsən sən? Sən get öz işinlə məşğul ol. Yenə də deyirəm, ucuz populyarlıq dalınca qaçanların axırı pis olur, bir. İkincisi, qayda-qanun var ölkədə. Heç kim özbaşınalıq edə bilməz. Əgər kimsə unudur, biz onun yadına salarıq. Təkcə bu işlərlə, əlbəttə ki, məsələ bitməyəcək. Sosial obyektlər də tikilməlidir.

*Ucuz populyarlıq qazanmaq üçün, yaxud da ki, özü üçün hansısa bir ofis, yeni ofis yaratmaq üçün belə açıqlamaların verilməsi tamamilə qəbuledilməzdir və buna son qoyulmalıdır*

Evlərin tikintisi ilə paralel olaraq sosial obyektlər - xəstəxanalar, məktəblər, mədəniyyət ocaqları, idman qurğuları. Yoxsa əgər biz indi gedib haradasa, necə deyərlər, məktəb tiksək, ya xəstəxana tiksək, amma kim oraya gedəcək. Orada adam yoxdur.

Şuşa şəhərinə gəldikdə, Şuşa şəhəri mənim tərəfimdən ölkəmizin mədəniyyət paytaxtı elan edilib. Bunu hər kəs bilir və bu qərar yüksək qiymətləndirilib. Şuşa nəinki Azərbaycanın, bölgənin, bəlkə də dünyanın mədəniyyət paytaxtlarından birinə çevriləcəkdir. Şuşada çox zəngin mədəni həyat olmalıdır. Şuşada yaşayacaq bizim soydaşlarımız da, onlar bütün işlər görüləndən sonra oraya qayıtmalıdırlar.

Səh. 2

MÜSAHİB

## Çin - Azərbaycan əlaqələrini uğurlu və parlaq sabahlar gözləyir



**Qo Min,**
Çinin Azərbaycandakı səfiri

*Tam bir il əvvəl dünya yeni növ koronavirusla tanış oldu. İlk dəfə Çində - Uhan şəhərində təsadüf edilən bu virus hazırda bəşəriyyətin bir nömrəli başağrısına çevrilməkdədir. Maraqlıdır ki, milyardyarım əhalisi ilə dünyanın ən böyük dövləti olan Çində cüzi sayda yoluxma faktlarını bir yana qoysaq, deməsk olar ki, virusa qalib gəlinib, insanlar rahat yaşayır və iqtisadiyyat, sosial həyat öz axarında işləyir. Əlbəttə, pandemiyanın zərbə vurduğu xarici əlaqələr də bərpa edilməkdədir.*

Ticarət əlaqələrinin həcminə görə, Çin Azərbaycanın dünyada dördüncü böyük tərəfdaşı sayılır

Səh. 3

MÜSAHİB



**Şair Ramaldanov,**
istefada olan polkovnik, hərbi ekspert

■ Zaman keçdikcə Türkiyənin Monitorinq qrupunda təmsil olunmasının əhəmiyyətini görəcəyik.

■ Türkiyə Laçında Azərbaycanın Dövlət və Gömrük Sərhədi Xidmətinin funksiyasının bərqərar edilməsi ilə bağlı məsələ qoyub.

■ Faşist Njdenin heykəlinin gətirilib Azərbaycan ərazilərində qoyulması faktının özü də təzadlıdır.

Səh. 6

GÜNÜN FOTOSU...




**Myanmar - hərbi çevrilişdən sonra...**

GÜNÜN SİTATI

*"Qarabağ münaqişəsinin nizamlanması Türkiyə ilə müzakirə edilməlidir. Regionun reallığı belədir. Türkiyə bizim qonşumuz və çox vacib tərəfdaşımızdır. Azərbaycan üçün çox yaxın ölkədir. Bu faktı nəzərə almamaq mümkün deyildir"*



**Dmitri Medvedev,**
Rusiya Federasiyası Təhlükəsizlik Şurası sədrinin müavini

KARİKATURA



**Qazi atasını qapıda qarşılayan usaq...**

## İranın minatəmizləmə qrupu yaxın vaxtlarda Azərbaycana gələcək

**Seyid Abbas Musəvi,**
İranın ölkəmizdəki səfiri

Biz də bu layihəni reallaşdırmaq üçün Culfa dəmir yolunu sözügedən dəhlizə birləşdirərək, bu növ əməkdaşlıq əlaqələrinin genişləndirilməsində iştirak etməyə hazırıq.

Səh. 6

STATİSTİKA



**2020-ci ildə Naxçıvanda dünyaya gələn uşaqların statistik göstəriciləri açıqlanıb.**

Belə ki, ötən il Naxçıvan Muxtar Respublikasında 4 min 624 uşaq doğulub. Təbii artım 1753 nəfər, doğum göstəricisi 10, ölüm göstəricisi 6.2, 1 yaşa qədər uşaq ölümü 12 nəfər olmaqla 2,6 promilli təşkil edib.



Səh. 7

## Sudan daha az istifadəyə məcburuq...

## PREZİDENTİN İŞ GÜNÜ



**■ Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva fevralın 1-də Abşeron Rayon Mərkəzi Xəstəxanasının yeni inşa edilən binasının açılışında iştirak ediblər.**

Dövlətimizin başçısı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva xəstəxanada yaradılan şəraitlə tanış oldular.

Azərbaycan Prezidentinin müvafiq Sərəncamı ilə tikilən 150 çarpayılıq tibb müəssisəsi ən zəruri avadanlıqla təchiz olunub. Burada dünyanın aparıcı şirkətlərinin avadanlığı quraşdırılıb. Xəstəxanada cərrahiyyə, terapiya, pediatriya, reanimasiya, dializ və digər şöbələr, həmçinin laboratoriyalar fəaliyyət göstərəcək. Bu binaya Abşeron Rayon Mərkəzi Xəstəxanasının nəzdində olan mərkəzi xəstəxana, Abşeron rayon poliklinikası, Abşeron rayon uşaq poliklinikası və təcili və təxirəsalınmaz tibbi yardım şöbəsinin köçürülməsi nəzərdə tutulub.



**■ Fevralın 1-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yenidən qurulan 220/110/10 kilovoltluq və yeni tikilən 110/35/10 kilovoltluq “Xırdalan” yarımstansiyalarının açılışında iştirak edib.** Dövlətimizin başçısı “Xırdalan” yarımstansiyasında yaradılan şəraitlə tanış oldu. Məlumat verildi ki, 220/110/10 kilovoltluq “Xırdalan” yarımstansiyası istismar müddətini başa vurduğuna və artan tələbatı qarşılaya bilmədiyinə görə tam yenidən qurulub.

Sonra Prezident İlham Əliyev məsafədən idarəolunan SCADA Dispetçer sistemi vasitəsilə yeni tikilən 110/35/10 kilovoltluq “Xırdalan” yarımstansiyasını işə saldı. Bildirildi ki, qəzaların qarşısının alınması və istehlakçıların keyfiyyətli və fasiləsiz elektrik enerjisi ilə təchiz edilməsində bu stansiya mühüm əhəmiyyətə malikdir. Dövlətimizin başçısına yeni SCADA layihəsinin birinci mərhələsinin başa çatması barədə də məlumat verildi. Qeyd edildi ki, yarımstansiyanın yeni inzibati binasında SCADA idarəetmə sisteminin tam həcmdə ehtiyat dispetçer idarəetmə mərkəzi yaradılıb.

**■ Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva fevralın 1-də Abşeron rayonunun Xırdalan şəhərində 3 saylı məktəb-liseydə yaradılan şəraitlə tanış olublar.**

Dövlətimizin başçısının 2019-cu ilin yanvarında imzaladığı Sərəncamla bu təhsil müəssisəsinin 1176 şagird yerlik korpusu əsaslı təmir olunub və 1200 şagird yerlik yeni əlavə korpus inşa edilib. Yeni tikilən korpusda müasir sinif otaqları, informatika, hərbi hazırlıq, əmək təlimi, məktəbəqədər hazırlıq kabinetləri yaradılıb və zəruri dərs vəsaiti ilə təchiz olunub. Burada, həmçinin STEAM - elm, texnologiya, mühəndislik, incəsənət, riyaziyyat otağı, laboratoriyalar, akt zalı və açıq idman meydançası yaradılıb.



**■ Fevralın 1-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva paytaxtın Yasamal rayonunda yeni salınan meşə tipli parkın açılışında da iştirak ediblər.**

Dövlətimizin başçısı və birinci xanım parkda yaradılan şəraitlə tanış oldular. Qeyd edək ki, dövlətimizin başçısının tapşırığına əsasən salınan bu parkın ümumi ərazisi 4 hektardır. Vaxtilə bu ərazi bəzi adamlar tərəfindən zəbt olunmuşdu və onlar bunu hissə-hissə satmaq niyyətində idilər. Məhz Prezident İlham Əliyevin müdaxiləsindən sonra bu proses dayandırıldı və bu torpaqlar dövlət fonduna qaytarıldı. Yeni salınan parkda yaşıllıq zonası ərazinin 70 faizindən çoxunu əhatə edir.

HƏFTƏ İÇİ
MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

Təsisçi və
baş redaktor:
Sevinc Seyidova

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb
(lisenziya 022303), “Həftə içi”nin kompüter mərkəzində yığılır,
səhifələnir və “CBS” mətbəəsində çap olunur.
Müəllifin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.
Qəzet çərşənbə axşamı, cümə axşamı və şənbə günləri nəşr edilir.

Qəzet 22 iyul 1998-ci ildən çıxır. Tiraj -2000

“Həftə içi” nəşriyyat MMC, VÖEN 1600386721, "KAPITALBANK" ASC
1 saylı Səbail filialı Kod: 200059 VÖEN: 9900003611
M/h: AZ37NABZ01350100000000001944
S.W.İ.F.T.Bik AİİBAZ 2X

Ünvan:
Azərbaycan, Bakı şəhəri, H.Zərdabi, 71A mənzil -10
Tel.: - 433-27-63.
E-mail: hafta-ici@rambler.ru,
web-sayt: www.hafta.az

## Gündəm

# Prezident Mərkəzi Bankın sədrini tənqid etdi

əvvəli 1-ci səhifədə



### Azərbaycan vətəndaşlarına da deyirəm, bərpa işləri ilə bağlı görüləcək işlərdə mütləq ictimai nəzarət olmalıdır

Şuşa demək olar ki dağılıb, bütün binalar dağılıb. Bir keçmiş raykom binası qalıb, harada ki, mənfur xunta özü üçün yuva salmışdır, bir də xunta başçısının villası və bir-iki də cinayətkar, rüşvətxor erməni məmurunun villası. Başqa orada bina yoxdur. Bir də “xruşşovkalar”, hansılar ki, çoxdan öz ömrünü bitiriblər, orada da 2 min erməni yaşayırdı. İndi Mərkəzi Bank insanlara xidmət göstərib ki, orada filial açsın? Kimin üçün filial açacaq? Özü üçün ki, gedib orada otursun, yaxud da ki, gedəndə bunun bir iqamətgahı olsun, şəraiti olsun, oraya pullar xərclənsin və insanların buna hansı xeyri dəyəcək? Heç bir. Təkcə bu, deyil. Digər qurumlar da, indi mənə müraciət etmişlər. Onların hər halda ağlı çatıb mənə müraciət etməyə və mən onlara dedim ki, gedin oturun yerinizdə. Onları da mən deyə bilərəm, sadalaya bilərəm, qoy Azərbaycan vətəndaşları bilsinlər. Azəravtoyol, onun rəhbəri mənə müraciət edib ki, icazə verin, Şuşada Azərbaycan Azəravtoyol qurumunun regional mərkəzini açaq. Nə üçün? Yol çəkmək lazımdır, get, yol çək. Özü öz hesabına heç kim yol çəkmir, dövlət büdcə ayırır. Şuşada Azəravtoyolun regional mərkəzinin nə işi var? Belə də özü üçün şərait yaratsın, getsin o torpağı zəbt etsin, özü üçün iqamətgah tikdirsin, onu hasara alsın, bir qarovulçu qoysun və bəli, oraya gedəndə otursun orada belə təbiəti, necə deyərlər, seyr etsin. AZAL, onun da rəhbəri mənə müraciət etmişdir ki, AZAL-ın hansısa qurumunu Şuşada yaratmaq istəyirlər. Bu, prinsipcə absurddur. Ona da lazımi sözləri demişəm ki, get otur yerində. Ondan sonra, Dövlət Gömrük Komitəsi Şuşada Qarabağ Regional Mərkəzinin yaradılması ilə bağlı müraciət edib. Şuşada sərhəd var ki, gömrüyün regional mərkəzi olsun?

Bilirsiniz, belə ziyanlı fikirlər bu adamların beyninə gəlir və onlar da bunu tələffüz edirlər. Siyahı davam edir hələ. Fövqəladə Hallar Nazirliyi, mənə nazir müraciət edib, icazə verin, orada biz Fövqəladə Hallar Nazirliyinin Qarabağ regional mərkəzini yaradaq, Şuşa şəhərində. Yenə də eyni məqsədlə, yenə də torpaq, hələ ki, orada indi heç kim yoxdur, yenə də hasar, yenə də nə bilim tikanlı məftil, iqamətgah. Dövlət Sərhəd Xidməti. Bu təklifi indi desəm yəqin ki, mənim kimi indi Azərbaycan xalqı da güləcək. Mənə zəng edib deyir xidmətin rəisi ki, icazə verin biz sərhəd xidmətini Şuşa zastavasında yaradaq. Dedim ki, a kişi Şuşada sərhəd var? De də mənə Şuşada sərhəd var, yoxsa yox? Deyir yoxdur. Deyirəm bəs nə zastava yaradırsan? O boyda indi bizim sərhədimiz yaranıb, ta şimaldan cənuba qədər, Kəlbəcərdən Cəbrayıla qədər, Ermənistanla sərhəd. Cəbrayıl rayonunda İranla sərhəd, get orada yarat da. Şuşada nə işin var sənin?! Yenə də gəlim, oturum, yerləşim, iqamətgah qurum, hamısı da dövlət hesabına, hamısı dövlət hesabına. Burada mənim burada bir rezidensiyam olsun. Mən bəzən bu şeyləri demirəm vətəndaşlara ki, o vətəndaşları iyrəndirməyim, bağışlayın sözümə görə, ifadəmə görə. Amma da mənim də artıq səbrim tükənir və deyirəm ki, vətəndaşlar da bilsinlər, bu məmurlar da bilsinlər. Məmurlar öz yerini, yerlərini bilsinlər, öz işləri ilə məşğul olsunlar. Bir də mən Şuşanı mədəniyyət paytaxtı elan etmişəm, məmurlar paytaxtı elan etməmişəm. Ona görə hərə otursun yerində, öz işi ilə məşğul olsun, məni də əsəbləşdirməsin. Şuşanın ərazisinin ölçüsü 300 hektardır. Mən qoymamışam ki, bir dənə daş daş üstə qoyulsun. Çünki birinci təhlil aparmalıyıq. Ondan sonra o tarixi binaları bərpa etməliyik, necə bərpa etməliyik, bunu mən də deyə bilmərəm, mütəxəssislər deməlidir, biz indi cəlb etmişik. Misal üçün, Xurşidbanu Natəvanın sarayı, necə bərpa edilməlidir? Çünki onun bir divarı var, qalan divarlar uçub. Hansı formada o bərpa edilməlidir? Onu yenidənmi eyni stildə qalan o uçan hissəsi tikilməlidir, yaxud da ki, elə formada tikilməlidir ki, oraya gələn görsün ki, bax bu, buradan dağılıb, oradan sökülüb. Bu suala mənim cavabım yoxdur, çünki mən mütəxəssis deyiləm və indi müxtəlif şirkətlər, yerli, xarici şirkətlər məşğul olurlar artıq bu işlərlə. Şuşada biz ancaq və ancaq tarixi binaları bərpa etməliyik, mən belə hesab edirəm. Ondan sonra “xruşşovkalar”la bağlı, indi qabaqlamaq istəmirəm, mənim fikrim var ki, onların bir çoxu oradan yığışdırılmalıdır. Onların yerində yəqin ki, müasir 4-5 mərtəbəli yaşayış binaları tikilməlidir, ancaq bunu yenə də mən sadəcə olaraq öz fikirlərimi bölüşürəm, amma necə olacaq, onu mütəxəssislər deyəcək, memarlar, tarixçilər, şuşalılar özləri, onlar necə bu şəhəri görmək istəyirlər, çünki bu, onların şəhəridir. Yoxsa bütün bunlar, işlər, bu işlər kənarda qala-qala biri durur ki, mən filial açıram, biri deyir ki, mən zastava açıram, biri deyir ki, mən fövqəladə hallar açıram. Vallah, adam söz tapmır. Mən söz tapmışam, onlara elə söz demişəm ki, onlar o sözü unutmayacaqlar. Azərbaycan vətəndaşlarına da deyirəm, bərpa işləri ilə bağlı görüləcək işlərdə mütləq ictimai nəzarət olmalıdır. Olmasa bax bilin, yenə də eybəcər binalar tikiləcək, torpaqlar zəbt ediləcək, hərə özü üçün bir obyekt tikəcək. Mən indi o biri məsələni də demək istəyirəm. Mən indi müvəqqəti idarəetmə strukturu yaratmışam. Nəyə görə? Çünki mən görürəm, bilirəm, artıq gözlər tikilib oraya. İndi oraya elə bil ki, hücum gözlənilir, zəbtetmə hücumu. O torpaq mənim, o torpaq sənin, oranı mənə, buranı sənə. Amma mən bunların hamısını cəzalandıracağam, hamısını, özü də necə lazımdır. Otursun hərə öz yerində öz işi ilə məşğul olsun. Bütün torpaqlar planlı şəkildə bərpa ediləcək. Orada insanlar üçün şərait yaradılacaq, elə şərait ki, dünya üçün nümunə olacaq. Heç bir qanunsuz hərəkət ola bilməz. Heç bir torpaq zəbt oluna bilməz. Hər şey planlı şəkildə və əsaslı şəkildədir. Mən əminəm ki, buna biz nail olacağıq. Biz hamımız istəyirik ki, dağıdılmış şəhərlər tezliklə bərpa edilsin, amma, eyni zamanda, elə olsun ki, bu, oraya qayıdacaq insanların rahatlığını təmin etsin və müasir, güclü Azərbaycanın gücünü bütün dünyaya göstərsin”.

### 1-2 iləböyük xəstəxanaların tikintisinə son qoyulacaq

**Dövlət başçısı müsahibəsində digər məsələlərdən də danışıb. Səhiyyə sahəsində görülən işlərə toxunan Prezidentin sözlərinə görə, son 17 il ərzində 750-dən çox xəstəxana ya yenidən tikilib, ya da ki, əsaslı şəkildə təmir edilib.** Səhiyyə sistemimizin bu xəstəxana və tibb müəssisələri fondu demək olar ki, indi ən yüksək standartlara cavab verir. Bundan sonra, əlbəttə ki, biz, ilk növbədə, səhiyyə sisteminin təkmilləşdirilməsi və tibbi xidmətin xüsusilə indiki dövrdə keyfiyyətini artırmaq üçün əlavə addımlar atacağıq: ”Dövlət hesabına 5 milyon insanı - ölkə əhalisinin yarısını tibbi müayinədən keçirmək böyük təşkilatçılıq və maliyyə resursları tələb edir. Azərbaycan nadir ölkələrdəndir ki, bu təşəbbüsü həm irəli sürüb, həm də bunu reallaşdırıb. Eyni zamanda, bildiyiniz kimi biz indi, icbari tibbi sığorta sisteminə keçmişik. Bu keçid də mərhələli yollarla həll olunub. Pilot layihələrin icrası bizə ilkin məlumatlar verib və məlumatlar da çox müsbət idi. Pilot layihələrlə əhatə olunmuş üç şəhərdə həm tibbi xidmətin keyfiyyəti artdı, eyni zamanda, vətəndaşların məmnunluğu yüksək səviyyədə idi. Ona görə biz artıq bu sistemə də keçmişik. Əgər müasir xəstəxana fondu olmasaydı, buna keçmək mümkün olmazdı. Yəni, biz hər şeyi ardıcıllıqla edirik və yəqin ki, gələn 1-2 il ərzində böyük xəstəxanaların tikintisinə artıq son qoyulacaq və daha çox səhiyyə sisteminin təkmilləşdirilməsi, müasirləşdirilməsi istiqamətində addımlar atılacaqdır”.

### Azərbaycan istədiyinə nail oldu

**Prezident İlham Əliyev Azərbaycanda koronavirusa qarşı mübarizə tədbirlərindən də söz açıb. Bildirib ki, pandemiya ilə mübarizədə Azərbaycan ilk günlərdən qabaqlayıcı tədbirlər görərək, istədiyinə nail oldu:** ”Biz vəziyyəti bütün dövrlərdə, yəni, bu bir il ərzində nəzarətdə saxlamağı bacarmışıq. Burada əlbəttə ki, yeni laboratoriyaların ölkəyə gətirilməsi xüsusi rol oynamışdır. Çünki pandemiyaya qədər bizdə cəmi 8 laboratoriya var idi və gündə cəmi min test keçirilə bilərdi. Hazırda laboratoriyaların sayı 42-dir və 20 min test keçirilə bilər və bunu biz keçiririk. Bütövlükdə 2 milyon 400 min test keçirilib. Yəni, bu, çox böyük rəqəmdir.

Eyni zamanda, pandemiya dövründə ilk günlərdən modul tipli xəstəxanaların ölkəyə gətirilməsi ilə məşğul olmağa başlamışdıq və hesab edirəm ki, burada da liderlik göstərdik. Çünki bizdən sonra bir çox ölkələr oxşar addımlar atmışdır. Ancaq istehsalçılar artıq çatdıra bilmirdilər. Biz isə modul tipli 13 xəstəxananı Azərbaycana gətirdik, quraşdırdıq. İndi bizdə xəstəxana fondu tam imkan verir ki, xəstəliklə bağlı bütün məsələlər həll olunsun və həm palatalar, həm reanimasiya palataları kifayət qədərdir. Bunun və eyni zamanda, son həftələr ərzində dövlət siyasətinin nəticəsidir ki, müsbət dinamika müşahidə olunur, sağalanların sayı xəstələnənlərin sayından xeyli çoxdur. Hesab edirəm ki, vaksinasiya başladığı üçün bu sahədə daha da uğurlu addımlar atılacaq. Məhz buna görə biz indi yumşalma mərhələsinə qədəm qoymuşuq. Biz il ərzində rejimi gah yumşaldırdıq, gah sərtləşdirirdik, vəziyyətə uyğun şəkildə addımlar atırdıq ki, insanların sağlamlığını qoruyaq, eyni zamanda, insanlar üçün lazım olmayan halda əlavə çətinliklər yaratmayaq. Yəni, biz daim bu məsələyə çox həssaslıqla yanaşmışıq ki, bu iki vacib məsələni həll edək - insanların sağlamlığı, onların rahatlığı və necə deyərlər, mənəvi durumu”.

> *Hərə otursun yerində, öz işi ilə məşğul olsun, məni də əsəbləşdirməsin*

### Bu, eqoizmdir, vicdansızlıqdır

**Dövlət başçısı ölkəmizdə pandemiyaya qarşı vaksinasiya prosesindən də danışıb. Bildirib ki, Azərbaycan Cənubi Qafqazda ilk olaraq artıq vaksinasiya işlərinə start verdi.** Eyni zamanda, yerləşdiyimiz bölgədə Azərbaycan birincilər sırasındadır: ”Onun nəticəsidir ki, pandemiyanın ilk günlərindən işlər düzgün qurulmuşdur, bütün lazımi addımlar atılmışdır, beynəlxalq təşkilatlarla təmaslar qurulmuşdur. Biz COVAKS təşəbbüsünün üzvüyük və COVAKS xətti ilə müxtəlif vaksinləri ölkəmizə gətirəcəyik. Eyni zamanda, biz bir neçə şirkətlə vaksinlərin ölkəmizə gətirilməsi ilə bağlı müqavilələr bağlamışıq. Amma onların bəzilərinin icrası indi yubanır, yəqin ki, bax, dediyim bu səbəblərə görə. Eyni zamanda, biz artıq 4 milyon doz vaksin sifariş etmişik və onların artıq Azərbaycana gəlməsi təmin edilib, Çin istehsalı olan vaksinlər. Yanvarın 18-dən başlayaraq Azərbaycanda vaksinasiya başlamışdır. Müqayisə üçün deyə bilərəm ki, Avropa İttifaqında bu, keçən il dekabrın 18-də başlamışdır. Yəni, bir aydan sonra artıq Azərbaycan vətəndaşları bu vaksinləri alırlar, peyvənd olunurlar, əlbəttə ki, bu, vaksinasiya sahəsində də bizim səmərəli işimizin təzahürüdür.

Onu da bildirməliyəm ki, indiki şəraitdə, xüsusilə zəngin ölkələr arasında olan bu ixtilaflar istehsalçılara da mənfi təsir göstərir, bir çox ölkələrin vətəndaşlarını bu vaksinlərdən məhrum edir. Ondan başqa, bu, dünyada ölkələr arasındakı inamsızlığı da alovlandırır. İndi siz Avropa İttifaqı ilə Böyük Britaniya arasındakı qalmaqaldan danışdınız, amma başqa misallar da var. Misal üçün, yenə də açıq mətbuata istinad edərək deyə bilərəm ki, inkişaf etmiş ölkələr dünya əhalisinin 14 faizini təşkil edir. Halbuki inkişaf etmiş ölkələr bu günə qədər dünya vaksinlərinin 53 faizini sifariş ediblər. Yəni, bu, yenə də ədalətsizlik, qeyri-bərabərlikdir. “Moderna” vaksini var, səhv etmirəmsə Amerika istehsalıdır. “Moderna” vaksininin 98 faizini zəngin ölkələr sifariş ediblər. “Pfizer” Avropa istehsalı vaksinidir. “Pfizer” vaksininin 96 faizini zəngin ölkələr sifariş ediblər. Yaxşı, bəs kasıb ölkələrin vətəndaşları nə etməlidirlər, xəstələnməlidirlər? Onlar xəstələnəndə onların ölmək ehtimalı daha böyükdür. Çünki o ölkələrdə səhiyyə sistemi inkişaf etmiş ölkələrdən müqayisəedilməz dərəcədə geridə qalıb. Ona görə, bax, bu məsələlər haqqında biz danışmalıyıq, bunu gizlətməməliyik. Ancaq bu məlumat açıq mətbuatda gedir, sanki ondan sonra unudulur. Çünki sərf etmir. Dünya mediasına rəhbərlik edən qurumlara sərf etmir. Çünki bu, o aktorların sözlərinin əməlləri ilə böyük fərqini göstərir.

Bir misal da gətirə bilərəm. Bu yaxınlarda verilən məlumata görə Kanada 154 milyon əhali üçün vaksinlər sifariş edib. Kanadanın əhalisi 38 milyondur. Yəni, bu ölkə, bu ölkənin hökuməti, hansı ki, Vətən müharibəsi zamanı sırf ermənipərəst mövqe sərgiləyirdi, işğalçıları dəstəkləyirdi, bizim haqq işimizə kölgə salmaq istəyirdi və hətta “Bayrakdar” pilotsuz uçuş aparatlarının kameralarının Türkiyəyə ixrac edilməsi ilə bağlı əsassız embarqo qoymuşdu. Həmin bu ermənipərəst ölkə 154 milyon vaksin sifariş edir, onun pulunu verir, öz ölkə əhalisinin sayı 38 milyondur. Yəni, dörd dəfə çox. Deməli, 120 milyona bu vaksin çatmayacaq. Onlar almayacaqlar, onlar xəstələnəcəklər, öləcəklər. Bunların vecinə deyil. Bunlar ancaq eqoist hisslərə qapılaraq öz maraqlarını təmin etmək istəyirlər. Belə olan halda hansı demokratiyadan söhbət gedə bilər? Hansı ədalətdən, mərhəmətdən, insan haqlarından söhbət gedə bilər? Deməli, kasıb ölkələrin insanlarının haqları tapdalanır, onların səhhəti, sağlamlığı risk altına düşür. Amma zəngin ölkələr öz maraqlarını artıqlaması ilə, o maraqların 4-5 mislini təmin etməklə, necə deyərlər, öz maraqlarını təmin edirlər.

Bu, sadəcə olaraq bu xəstəliklə bağlı olan məsələ deyil. Bunun çox dərin kökləri var və bu, təsadüfi deyil. Çünki bu dərin köklər bizi müstəmləkəçilik dövrünə aparır. Amma elə bil ki, biz neomüstəmləkəçilik dövrünü qeyri-rəsmi müşahidə edirik, yaxud da ki, elan edilməmiş müstəmləkəçilik, bunun başqa adı yoxdur. Belə olan halda bu ölkələrin mənəvi haqqı varmı kiməsə nəsə desin, kimisə nədəsə ittiham etsin? Bu, eqoizmdir, vicdansızlıqdır. Azərbaycan - Qoşulmama Hərəkatına sədrlik edən ölkə burada səssiz qalmır və qalmayacaq. Bu gün mən bu imkandan istifadə edərək Qoşulmama Hərəkatının üzvlərinə də çağırış edirəm ki, onlar da bizim səsimizə qoşulsunlar və biz bu məsələni beynəlxalq kürsülərdə, BMT kürsüsündə qaldırmalıyıq. Ümumdünya Səhiyyə Təşkilatına müraciət etməliyik, şirkətlərə müraciət etməliyik, zəngin ölkələrə müraciət etməliyik ki, bu ölkələr bu praktikadan əl çəksinlər. Bu, ədalətsizlikdir. Buna göz yummaq olmaz. Bunun üstünü örtmək olmaz. Bu barədə Azərbaycan BMT-dən sonra ikinci böyük təsisatın lideri kimi, öz sözünü bundan sonra da deyəcək”.

## Bizim səfir

**Dosye**

**Çinin Azərbaycandakı indiki səfiri Qo Min ölkəmizə keçən il təyin olunub. O, bu vəzifədə Vey Cinhuanı əvəz edib.**

Qo Min Azərbaycanca səfir təyin olunmamışdan əvvəl 4 il Çinin Sankt-Peterburqdakı baş konsulu vəzifəsində çalışıb. Bütövlükdə, diplomat 16 il ərzində Çini Rusiyada müxtəlif vəzifələrdə təmsil edib.

**Tam bir il əvvəl dünya yeni növ koronavirusla tanış oldu. İlk dəfə Çində - Uhan şəhərində təsadüf edilən bu virus hazırda bəşəriyyətin bir nömrəli başağrısına çevrilməkdədir. Maraqlıdır ki, milyardyarım əhalisi ilə dünyanın ən böyük dövləti olan Çində cüzi sayda yoluxma faktlarını bir yana qoysaq, demək olar ki, virusa qalib gəlinib, insanlar rahat yaşayır və iqtisadiyyat, sosial həyat öz axarında işləyir. Əlbəttə, pandemiyanın zərbə vurduğu xarici əlaqələr də bərpa edilməkdədir. Bu müstəvidə Azərbaycanın ən böyük iqtisadi tərəfdaşlarından olan Çinin "Covid-19" üzərində qazandığı zəfərdən biz də məmnunuq və bir gün ölkəmizin də bu bəladan tam xilas olaraq, rahat inkişaf edəcəyinə əminik.**

# Çin - Azərbaycan əlaqələrini uğurlu və parlaq sabahlar gözləyir



**Qo Min,**
Çinin Azərbaycandakı səfiri

Bunun üçün dost ölkələrin təcrübəsindən, yeri gələndə çətinlik çəkdiyimiz, ehtiyacımız olan sahələr üzrə yardımlarından da bəhrələnməliyik. Necə ki, virusun ölkəmizdə ilk yayıldığı vaxtlarda bu yardımları Çin xalqından və hökumətindən görmüşük. Bəs bu gün necə, epidemiyanın kökünü kəsmiş sayılan Çinlə əməkdaşlığımız hansı səviyyədədir, vurusa qalib gəlmək üçün dəstəyini davam etdirirmi bizə? Suallarımızı Çin Xalq Respublikasının ölkəmizdəki səfiri xanım Qo Minə ünvanladıq. Xanım səfir söhbətə geridə buraxdığımız, pandemiyanın tüğyan etdiyi ildə Çin - Azərbaycan əməkdaşlığını şərh etməklə başladı:

- Bildiyimiz kimi, 2020-ci il Çinlə Azərbaycan arasında diplomatik əlaqələrin yaranmasının 28-ci ili tamam olub. Bu ildə Çin Dövlət Şurasının sədri Si Tzinpin və Azərbaycan Prezidenti İlham Əliyevin qayğısı və birgə fəaliyyəti nəticəsində ölkələrimiz arasında əlaqələr sürətli inkişaf tempini qoruyub saxlayıb, qarşılıqlı siyasi etimad daha da artıb, "Bir kəmər, bir yol" layihəsinin inşası üzrə gözəl nəticələr əldə edilib. Ümumiyyətlə, tərəflər iki ölkənin ümumi maraqlarını müdafiə etmək üçün əsas məsələlərdə həmişə bir-birlərinə güclü dəstək veriblər. Siyasi mübadilələrə gəlincə, epidemiya səbəbi ilə iki ölkə arasındakı yüksək səviyyəli səfərlər müvəqqəti dayandırılmış olsa da, iki ölkənin ali rəhbərliyi və müxtəlif dövlət qurumları bir-birlərinə böyük bayram günləri və epidemiya ilə bağlı təbrik və başsağlığı məktubları göndərərək, həmçinin bir-birlərinə güclü dəstəklərini ifadə edərək sıx təmaslarını davam etdiriblər. Ölkələrimiz davamlı olaraq beynəlxalq səviyyədə əməkdaşlığı gücləndirir. Çin hökuməti Azərbaycan prezidentinin BMT Baş Assambleyasının Covid-19-la bağlı xüsusi videokonfransını çağırmaq təşəbbüsünü dəstəkləyib. Çin hökuməti Azərbaycanın Qoşulmama Hərəkatının sədri olaraq vacib təşəbbüslərini, eləcə də Ümumdünya Səhiyyə Təşkilatının nüfuzunun qorunması müstəvisində atdığı addımları yüksək qiymətləndirir.

### Ticarət dövriyyəsi azalıb

***- Pandemiya şəraitində qlobal miqyasda iqtisadi-ticarət əlaqələri zəifləyib. Bu müstəvidə Çinlə Azərbaycan arasında əlaqələrin vəziyyəti necədir?***

- Ölkələrimiz arasında ticarətin həcmi 1,847 milyard dollar olub ki, bu da əvvəlki illə müqayisədə 15,4 faiz azdır. Buna baxmayaraq, ticarət əlaqələrinin həcminə görə, Çin Azərbaycanın dünyada dördüncü böyük tərəfdaşı sayılır. İkitərəfli ticarət həcminin azalmasına baxmayaraq, Çindən Azərbaycana ixracın həcmində xeyli artım nəzərə çarpır. Amma bununla kifayətlənmək olmaz, ölkələrimizin müxtəlif sahələr üzrə idxal-ixrac əlaqələrini artırmaq üçün böyük potensialı mövcuddur. Azərbaycan Şanxayda keçirilən 3-cü Beynəlxalq Çin EXPO sərgisində fəal iştirak edib. Azərbaycan məhsulları - bal, şərab, cem və digər qida çeşidləri çinlilər tərəfindən böyük maraqla qarşılanıb. Demək mümkündür ki, qlobal pandemiya ölkələrimiz arasında humanitar mübadiləyə qətiyyən təsir göstərməyib.

### Humanitar əlaqələr genişlənir

***- Yeri gəlmişkən, elmi-mədəni sahədə əlaqələrimiz ötən il əvvəlki sürətilə inkişaf edib, hətta bu müstəvidə Səfirliyin də rolu böyük olub...***

- Bu sahədə ilk tədbirimiz ötən ilin yanvarında olub. Belə ki, Çin səfirliyi Xalça Muzeyi ilə birlikdə, Bakı sakinləri tərəfindən böyük hərarətlə qarşılanan "Çini tanı, Bakıda xoşbəxt bahar bayramı" adlı birgə tədbir keçirib. İyul ayında isə ölkələrimiz arasında təhsil sahəsində əməkdaşlığa dair saziş yenilənib. Bu sazişə əsasən, hər iki tərəfin 100 sayına çatan mübadilə əsasında dövlət təqaüdlərinin həcmi də artırılıb.

Hazırda Azərbaycanda Çin dilinə marağın artdığını görürük. Azərbaycanda fəaliyyət göstərən iki konfutsi institutu yerli istedadların Çin dilini öyrənməsi üçün vacib baza rolunu oynayıb. Eləcə də, Çinin bir neçə universitetində Azərbaycan dilini tədris edən xüsusi bölmələr açılıb. 2021-ci ildə Çin və Azərbaycan qarşılıqlı siyasi etimadı daha da dərinləşdirmək, milli strateji inkişafa dair razılığı daha da möhkəmləndirmək, müxtəlif sahələr üzrə praktik əməkdaşlığı genişləndirmək - bura iqtisadi, ticarət, elmi-humanitar sahələr daxildir, həmçinin iki ölkə arasında münasibətlərin gələcəkdə inkişafına təkan vermək istiqamətində fəaliyyətlərini davam etdirəcəklər.

### Pandemiyaya qarşı birgə mübarizə

***- Koronavirus epidemiyası təhlükəsi ilə üz-üzə qaldığımız bir vaxtda, Çin və Azərbaycan bütün bu çətinlikləri dəf etmək üçün birlikdə hansı işləri görə bilər?***

- Covid-19 epidemiyası yayıldıqdan sonra Çin və Azərbaycan bir-birlərinə yardım edib və epidemiyaya qarşı mübarizədə səylərini birləşdiriblər. İki ölkənin hökumətləri və xalqları çiyin-çiyinə mübarizə apardı, yüksək qarşılıqlı etimad, dərin dostluq ənənələri, ölkələrimizin inkişaf konsepsiyasına uyğun həmrəylik nümayiş etdirərək bir-birlərinə dəyərli dəstək nümayiş etdirdilər. Birincisi, güclü mənəvi dəstəkdir. İlk öncə dövlətlərimizin rəhbərləri və xarici işlər nazirləri epidemiya vəziyyəti ilə əlaqədar qarşılıqlı şəkildə başsağlığı məktubları göndəriblər. Onlar epidemiyaya qarşı mübarizədə bir-birlərinin gördükləri tədbirləri yüksək qiymətləndiriblər. Pandemiya ilə mübarizə sahəsində çətinlikləri dəf etmək üçün Azərbaycan və Çin xalqlarının səylərini birləşdirəcəklərini bildiriblər. Heydər Əliyev Fondu epidemiya ilə mübarizədə Çinə dəstək və həmrəylik ifadə etmək üçün Bakının ən məşhur tikililərindən olan Heydər Əliyev Mərkəzinin binasını beş ulduzlu, qırmızı bayraq fonunda işıqlandırılması təşəbbüsü ilə çıxış edib. Nizami Gəncəvi Beynəlxalq Mərkəzi və Azərbaycanın digər qeyri-hökumət təşkilatları "Haydı Uhan, haydı Çin" reklam çarxı çəkərək, orada Azərbaycan və Çin xalqlarının yaxın dost, bir-birilərinin sevincinə və kədərinə ortaq olduğunu göstəriblər. İkinci ən vacib məqamlardan biri təcrübə mübadiləsidir. Hər iki ölkənin tibb ekspertləri və epidemiyaya qarşı mübarizə departamentləri epidemiyanın qarşısının alınması, nəzarəti və müalicəsi ilə bağlı təcrübələrini bölüşmək üçün çox sayda v 4-17 avqust 2020-ci il tarixlərində Çin hökuməti epidemiyaya qarşı mübarizədə kömək etmək, onun qarşısının alınması, idarə olunması və müalicəsi üçün işlərin təşkili üçün bir qrup tibb ekspertlərini Azərbaycana göndərdi. Ekspert qruplarımız Bakı şəhəri ilə yanaşı, Sumqayıt, Cəlilabad və digər ərazilərdə epidemiya ilə mübarizənin ön cəbhəsində dayanıblar. Onlar bir sıra xəstəxanalara baş çəkib, laboratoriyalarda, qan mərkəzlərində və sair olub, öz təcrübələrini azərbaycanlı müvafiq səlahiyyətli şəxslərlə bölüşüblər. Çinli tibb ekspertlərinin yüksək fəaliyyəti Azərbaycan hökuməti və xalqı tərəfindən rəğbətlə qarşılanıb. Əlaqələrimizdə üçüncü vacib məqam vaxtında edilən maddi dəstəkdir.

***- Maddi-mənəvi dəstək ölkələrarası əlaqələrə çox müsbət stimul verir...***

- Razıyam. Epidemiyanın ilk yayıldığı günlərdə Çində də tibbi ləvazimat çatışmazlığı yaşanırdı. Belə bir vaxtda Azərbaycandan - Sumqayıt şəhər bələdiyyəsi təcili olaraq 100 min qoruyucu tibbi qapaq, 80 min cərrahi maska, 150 min cüt tibbi əlcək, 4 ton tibbi spirt və epidemiya əleyhinə digər vasitələri toplayaraq, yardım şəklində Çinin Sian və Myanyan şəhərlərinə göndərdi. Bu yardım onların tibbi ləvazimat çatışmazlığını effektli şəkildə yüngülləşdirdi. Heydər Əliyev Fondu, Nizami Gəncəvi Beynəlxalq Mərkəzi və digər vətəndaş cəmiyyətləri də öz kanalları ilə Çinə açıqürəkli humanitar yardımlar göndəriblər. Azərbaycanda da epidemiya şəraiti ağırlaşanda, Çin dövləti də eyni addımı ataraq vaxtında öz yardım əlini uzatdı. Mərkəzi və yerli idarəetmə orqanları, həmçinin müxtəlif sənaye müəssisələri öz imkanlarını birləşdirərək Bakıya ümumilikdə 10 milyon yuan həcmində nuklein turşusu test reaktivləri, süni nəfəs aparatları, tibbi maskalar, qoruyucu geyimlər, gözlüklər, temperatur dəyişikliyini ölçmək üçün cihazlar və s. ümumi 10 milyondan çox məbləğdə tibbi yardım göndərib ki, hesab edirəm bununla Azərbaycan xalqına böyük faydamız toxunub. Epidemiyaya qarşı birgə mübarizə prosesində Çin və Azərbaycan həmişə bir-birini dəstəkləmiş və ikitərəfli və çoxtərəfli səviyyədə sıx əməkdaşlıq etmişlər və praktik fəaliyyətlər sayəsində bəşəriyyət üçün ümumi bir tale konsepsiyasını həyata keçirmişlər. Əminəm ki, epidemiyanın təsirinə məruz qalan Çin - Azərbaycan əlaqələrini mütləq uğurlu və parlaq sabahlar gözləyir.




### Çində aşılama prosesi

***- Hazırda Çində Covid-19-a qarşı aşılama prosesi necə gedir?***

- Çində bu proses sabit və nizamlı şəkildə həyata keçirilməkdədir. Dövlətimizin epidemiyaya qarşı mübarizə, onun yayılmasının qarşısının alınmasına hesablanmış nəzarət planı üzrə Dövlət Strategiyası bütün ölkə üzrə iki mərhələli qaydada icra olunur. İlk etapda dondurulmuş məhsulların idxalı, limanlarda karantin nəzarəti, gəmilərin yoxlanılması, aviasiya xidmətləri, faraş məhsullar satılan bazarlar, ictimai nəqliyyat, tibbi mühafizə sahələrində və həmçinin yoluxma risqi daha yüksək olan orqanların əməkdaşları aşılanır. Bura həmçinin, təhsil və işləmək məqsədilə orta və yüksək risk qrupuna daxil edilən ölkələrə səfər edənlər də daxildir. İkinci etapda isə bütün insanların peyvəndlənməsi nəzərdə tutulub. Yanvarın 26-na qədər Çində artıq 22,76 milyon insana peyvənd vurulub. Növbəti mərhələdə, vaksinləri təkmilləşdirmək üçün həyata keçirilən kliniki sınaqların aparılması və istehsal imkanlarının yaxşılaşdırılması nəticəsində Çində yaşlı, eləcə də yan xəstəlikləri olan insanların aşılanması həyata keçiriləcək.

### Peyvənddə Çin seçimi

***- Son vaxtlar Azərbaycan da daxil olmaqla, bir sıra ölkələr Çindən Covid-19-a qarşı istifadə edilən vaksin alıblar. İstərdik vaksin istehsalı sahəsində Çinin beynəlxalq təşkilatlarla əməkdaşlıqda təcrübə və ideyalarını bizimlə bölüşəsiniz...***

- Virus sərhəd tanımır və bəşəriyyət bu mənada ümumi taleyi bölüşür. Hesab edirəm ki, birlik və əməkdaşlıq pandemiya ilə mübarizədə ən güclü silahdır. Hazırda vaksinlər epidemiyaya qarşı mübarizədə beynəlxalq müstəvidə əməkdaşlığın mərkəzində dayanır. Çin Dövlət Şurasının sədri Si Tzinpin Ümumdünya Səhiyyə Təşkilatının 73-cü iclasında bəyan edib ki, Çində istehsal edilmiş vaksin bütün dünya ictimaiyyəti üçün əlçatan olacaq. Xüsusilə də, Çin aşısının ixracı üçün əlçatanlıq prinsipi üçüncü qrup ölkələrin də ondan rahat faydalanmasına şərait yaradacaq. Nəzərinizə çatdırım ki, vaksinin hazırlanması sahəsində çinli araşdırmaçılar dünyada ilk yerlərdə qərarlaşıblar. Artıq vaksinlərdən biri bazara çıxarılıb, digərləri isə tibbi sınaq mərhələsindədir. Düşünürəm ki, Çin vaksin hazırlanması sahəsində dünyaya öz töhfəsini verir və üzərinə götürdüyü öhdəlikləri yerinə yetirmək üçün səylə çalışır, xarici dünya ilə, xüsusilə də üçüncü qrup ölkələrlə vaksin sahəsində əməkdaşlıq edir. Tam olmayan statistikaya əsasən, hazırda dünyanın 40-dan çox ölkəsi Çin vaksinini təqdir edib. Güman edirəm ki, Çin vaksin istehsalını genişləndirməklə, daha çox ölkənin ehtiyacını ödəməyə çalışacaq. Çinin vaksin sahəsində beynəlxalq əməkdaşlığın genişləndirilməsinə dair təşəbbüsləri dünya birliyi tərəfindən yüksək qiymətləndirilir. Hazırda Sinopharm, Sinovac, CanSino və digər Çin müəssiləri koronavirus əleyhinə vaksinin hazırlanması planı çərçivəsində əməkdaşlığı müzakirə edirlər. Biz bu plan əsasında inkişaf etməkdə olan ölkələrin vaksinə əlçatanlığını təmin eləmək üçün öz töhfəmizi verməyə hazırıq. Türkiyə przidenti Rəcəb Tayyib Ərdoğan, vitse-prezidenti Fuat Oktay, Seyşel Adalarının prezidenti Ramkalavan, İordaniyanın baş naziri Aun əl-Xasaun, İndoneziya prezidenti Coko Vidodo, Bəhreynin vəliəhd şahzadəsi və baş naziri Salman ibn Xamad ibn İsa əl-Xəlifə və sair ictimaiyyətə açıq şəkildə Çin aşısı ilə peyvənd olunublar. O cümlədən, Azərbaycanın Səhiyyə naziri Oqtay Şirəliyev, TƏBİB-in sədri Ramin Bayramlı və digər yüksək rütbəli şəxslər də Çin vaksini ilə aşılanıblar. Bu yaxınlarda Çin Xalq Respublikasının sədri Si Tzinpin, Ümumdünya İqtisadi Forumunda "Davos gündəliyi" çərçivəsində çıxışı zamanı qeyd edib ki, ölkəsi pandemiyanın qarşısının alınması sahəsində qazandığı parlaq təcrübəsini digər ölkələrlə bölüşməyə davam edəcək, koronavirusla mübarizədə çətinlik çəkən dövlətlərə yardım göstərəcək. Belə bir söz var: soyuq qış isti yazın gəlişini, zülmət gecə isə səhər şəfəqini dayandıra bilməz. Bəşəriyyət, əlbəttə ki, bu pandemiyanı dəf edərək, fəsadlarını mütləq aradan qaldıracaq...

***✍ Vüsal Tağıbəyli***

## PREZİDENTƏ YAZIRLAR



**Xəqani Allahverdiyev, Bakı:**

- Cənab Müzəffər Ali Baş Komandan.

Vətən müharibəsi iştirakçısı və qazisi olaraq, müdrik siyasətiniz və möhkəm iradəniz, qüdrətli Ordumuzun qəhrəmanlığı sayəsində qazandığımız möhtəşəm Qələbə münasibətilə Sizi ürəkdən təbrik edirəm. Siz Azərbaycan xalqını 30 il həsrətində olduğu torpaqlarına qovuşdurdunuz, ölkəmizin ərazi bütövlüyünü təmin etdiniz. Buna görə Sizə dərin minnətdarlığımı bildirirəm. Bütün Azərbaycan xalqı Sizinlə fəxr edir, cənab Prezident!

Sizə möhkəm cansağlığı, uzun ömür, xalqımızın rifahı naminə yorulmaz fəaliyyətinizdə böyük uğurlar arzulayıram.

**Allah Sizi və xalqımızı qorusun.**

---

**Arzu Əliyeva, Neftçala:**

- Möhtərəm cənab Prezident,

Doğma Qarabağımızın azadlığı uğrunda aparılan haqq savaşında qazandığımız parlaq qələbə münasibətilə Sizi ailəmiz adından ürəkdən təbrik edir, Sizə möhkəm cansağlığı, dövlətimizin inkişafı yolunda atdığınız bütün addımlarda böyük uğurlar arzu edirəm.

Vətən torpaqları uğrunda canından keçmiş bütün şəhidlərimizə Allahdan rəhmət diləyirəm. Mən bir ana olaraq fəxr edirəm ki, oğlum Mirmövsüm Əhmədov şəhidlik zirvəsinə ucalaraq ölümə qalib gəlmiş ölümsüzlərdəndir.

Allah Sizdən razı olsun ki, biz şəhid ailələrinə və qazilərimizə diqqət və qayğınızı əsirgəmirsiniz. Sizə və şəhid valideynlərinə kömək göstərən hər bir kəsə dərin təşəkkürümü bildirirəm. Mən bu gün fəxrlə deyirəm: Vətən sağ olsun! Ali Baş Komandan sağ olsun!

Cənab Prezident, Vətən torpağı şəhid qanı ilə sulandıqca müqəddəsləşir. Fəxr edirəm ki, bu müqəddəs torpaqda mənim oğlumun da qanı var. Allah bir daha torpağımıza, dövlətimizə bu ağrı-acıları yaşatmasın! Qoy bundan sonra anaların gözləri övlad toylarında sevinc göz yaşları ilə dolsun!

**Allah daima yar və yardımçınız olsun! Amin!**

---

**- Bəxtiyar Bədəlovdan, Füzuli:**

Müzəffər Ali Baş Komandan!

Bu məktubu yazmaqla Sizə ürək sözlərimi bildirmək istədim.

Allah Sizə ailənizlə birlikdə uzun ömür, cansağlığı versin! Ömürdən pay olmaz deyirlər, amma mən deyirəm ki, bu canım Sizə qurban olsun. Çox sağ olun ki, bizim doğma torpaqlarımızı geri qaytardınız, xalqımızın şərəfini və qürurunu özünə qaytardınız. Allahdan bu haqq savaşında canından keçən bütün şəhidlərimizə rəhmət diləyirəm.

İkinci Qarabağ müharibəsində mənim həm Qarabağ qazisi olan qardaşım Allahqulu Bədəlov, həm də oğlum Elgün Bədəlov iştirak ediblər. Döyüş əməliyyatları zamanı iki qardaşım oğlu qəhrəmanlıq göstərərək şəhid olublar.

Sizin tapşırığınızla bütün şəhid ailələrinə, qazilərimizə göstərilən yüksək diqqət və qayğı göz qabağındadır. Buna görə Sizə dərin minnətdarlığımızı bildiririk. Allah Sizi başımızın üstündən əskik etməsin, cənab Prezident!

---

**Aygün Əliyeva, Naftalan:**

- Tarix yazan sərkərdə, çox hörmətli cənab Prezident,

Sizin və rəşadətli Ordumuzun misilsiz şücaəti sayəsində Vətənimiz Azərbaycanın ayrılmaz hissəsi olan Qarabağın işğaldan azad edilməsi münasibətilə Sizi səmimi qəlbdən təbrik edir, yorulmaz fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayıram.

Bu böyük qələbə Sizin düşünülmüş, uzaqgörən siyasətinizin, eləcə də xalqımızın birliyinin nəticəsidir. Sayənizdə Azərbaycan xalqı tarixinin ən böyük zəfərlərindən birinə şahid oldu. Siz bizim qələbəmizin fatehi oldunuz. Siz adını "Əsrin Fatehi", "Qalib Prezident" kimi qızıl hərflərlə tarixə yazdıran Azərbaycan igidisiniz. Azərbaycan xalqı Sizin əvəzsiz xidmətlərinizi heç bir zaman unutmayacaq.

İnanırıq ki, yağı düşmənin talan etdiyi və viran qoyduğu Qarabağımızı çox keçməz ki, yer üzündəki əsl cənnətə çevirəcəksiniz. Biz həmişə Sizinlə fəxr etmişik və edəcəyik! Xalqımızın rifahı naminə gördüyünüz misilsiz işlərinizdə hər zaman böyük uğurlara imza atasınız!

**Ulu Tanrı Sizi qorusun!**

---

**Seymur Hüseynovdan, Neftçala:**

- Ulu öndərimiz Heydər Əliyevin davamçısı, millətini, xalqını ürəkdən sevən Azərbaycanın qayğıkeş Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev.

Mən fəxr edirəm ki, Azərbaycan kimi dövlətin vətəndaşıyam. Ona görə ki, Sizin sayənizdə ölkəmiz hər sahədə yüksələn xətlə inkişaf edir. Görülən işlər göz qabağındadır. Siz ölkəmizi dünyanın gözü qarşısında qalib etdiniz. Bütün dünya Azərbaycanın gücünü, qüdrətini gördü və şahid oldu. Şəxsən öz adımdan və ailəm adından Sizə dərin təşəkkürümü və minnətdarlığımı bildirirəm. Mənim nə qədər ömrüm var Azərbaycan Respublikasına və onun Prezidentinə dəstək olacağıma söz verirəm.

Yaşasın zəfər çalmış Azərbaycan Respublikası, yaşasın Prezidentimiz. Biz Sizinlə fəxr edirik. Həmişə Sizə dəstək olaraq varıq. Çox sağ olun. Qarabağ Azərbaycandır!

---

**Hadrutda Poçt Agentliyi fəaliyyətə başlayıb**

Xocavənd rayonunun Hadrut qəsəbəsində Füzuli Poçt Filialının Müştəri Xidmətləri Şöbəsinin Poçt Agentliyi fəaliyyətə başlayıb.

Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyindən hafta.az-a verilən məlumata görə, qurum tərəfindən işğaldan azad olunan bütün bölgələr üzrə telekommunikasiya infrastrukturunun bərpası istiqamətində hazırda şərait olan ərazilərdə müvafiq xidmətlər təşkil olunur, rabitə infrastrukturu qurulur, xidmətlər göstərilir.

Minalardan təmizlənən ərazilərdə tələbata uyğun poçt xidmətləri qurulub. Hazırda Füzuli və Cəbrayıl Poçt filialları tərəfindən işğaldan azad olunan həmin istiqamətlərdəki ərazilər üzrə hərbi hissələrə ünvanlanan poçt göndərişlərinin təyinat üzrə çatdırılması təmin edilir.

"Azərpoçt" MMC tərəfindən Cəbrayıl, Qubadlı, Zəngilan, Füzuli və Hadrutda 5 ədəd modul tipli poçt şöbəsinin açılması üzrə işlər görülür. Gələcəkdə bütün bölgələr üzrə tələbata uyğun xüsusi poçt rabitəsinin və poçt xidmətlərinin təşkili üçün yeni poçt marşrutlarının müəyyənləşdirilməsi ilə bağlı təkliflər hazırlanır. Qeyd edək ki, işğaldan azad olunan ərazilərimizdə işğaldan öncə 295 poçt şöbəsi fəaliyyət göstərib.

# Kişilərə qarşı zorakılıq

## Layihə

*Ailədaxili şiddət və ya zorakılıq. Bu anlayış barədə indi çoxlarımız məlumatlıyıq. Demək olar ki, bu mövzu mütəmadi olaraq cəmiyyətdə müzakirə predmetidir. Həm ailədaxili münasibətlərin tənzimlənməsi, həm də zorakılıq hallarına "yox" deyilməsi məqsədilə müvafiq təşkilat və qurumlar tərəfindən davamlı şəkildə maarifləndirmə işləri aparılır. Bütün bunlara baxmayaraq ailədaxili münasibətlərdə gərginlik davam edir və qadınlar, uşaqlar, bəzən hətta kişilər də zorakılığın qurbanına çevrilir.*



**■ Məsələn, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin İnformasiya və analitik araşdırmalar şöbəsinin müdiri Elgün Səfərov deyir ki, məişət zəminində zorakılığa məruz qalanlar arasında kişilər də olur və son illər bununla bağlı faktların sayı artıb:** "Bütün cəmiyyətlərdə kişilərin zorakılığa məruz qalması ilə bağlı faklar mövcuddur. Sadəcə cəmiyyətdə kişilər məişət zorakılığına məruz qaldığını səsləndirməkdən çəkinirlər. Burada söhbət təkcə qadının kişiyə zorakılıq törətməsindən getmir. Ailədə qardaş, ata-oğul, nəvə-baba münasibətləri də var. Məişət zorakılığı həm fiziki, həm də psixoloji olaraq törədilə bilər. Pandemiyaya qədər 14 faiz kişilərin məişət zorakılığına qalması ilə bağlı fakt var idisə, sonralar kişilərə qarşı zorakılıq hallarında artım müşahidə olunub".



**Elgün Səfərov,**
Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin şöbə müdiri

> *"Araşdırmalarımıza və apardığımız sorğuya görə, artıq kişilərin 15-20 faizi zorakılığı törətməkdən qaçır və boşanmaya hazır olduğunu bildiriblər"*

### Müşahidələrə görə, son illər Azərbaycanda bu tipli zorakılıq hallarında artım var

Onun sözlərinə görə, birmənalı olaraq, cəmiyyətdə "məişət zorakılığına yox" deyilməlidir və zorakılığa qarşı mübarizə aparılmalıdır: "Mübarizə vətəndaşlar tərəfindən də davam etdirilməlidir. Vətəndaş özünün, qohumunun, qonşusunun və ya tanıdığı şəxslərin zorakılığa məruz qalması ilə faktı bizə bildirməli və buna laqeyd yanaşmamalıdır. Əksər hallarda bu cür hadisə ilə rastlaşanlar bizə müraciət etmək istəmirlər. Ona görə də xahiş edirəm ki, bizim "Qaynar xətt"ə müraciət etsinlər. Bu məsələyə laqeyd yanaşmaq olmaz, çünki biz hamımız cəmiyyətin bir parçasıyıq. Biz bu gün bir qadın vətəndaşın qəddarcasına öldürülməsinin, başqa bir qadının intihar etməsinin şahidiyik. Ona görə də bu hallarının baş verməməsi üçün siqnallar vaxtında dövlət qurumlarına çatdırılmalı, vətəndaşlar da buna həssas yanaşmalıdır. Əks halda, belə facələr, xoşagəlməz hallar baş verir. Bizim araşdırmalarımıza və apardığımız sorğuya görə, artıq kişilərin 15-20 faizi zorakılığı törətməkdən qaçır və boşanmaya hazır olduğunu bildiriblər".

### 300 manatdan 500 manatadək cərimə

**İnzibati Xətalar Məcəlləsinin 158-ci maddəsi xüsusiləşdirilərək, sırf məişət zorakılığının qarşısının alınması haqqında qanunvericiliyin pozulması zamanı tətbiq edilir.** Bu maddəyə görə, məişət zəminində iqtisadi xarakterli qanunsuz məhdudiyyətlərin tətbiqi, yəni şəxsin digərinin mülkiyyətində, sərəncamında və ya istifadəsində olan əmlakdan, gəlirlərdən məhrum edilməsi, iqtisadi asılılıq yaradılması və saxlanılması və ya vəziyyətdən sui-istifadə edilməsinə yönəlmiş hərəkətləri 100 manatdan 300 manatadək cərimə edilməsi ilə cəzalandırılır. Həmin maddənin ikinci bəndində isə məişət zəminində psixi zorakılığa, yəni şəxs tərəfindən digərinə qəsdən psixi təzyiq göstərilməsinə və ya dözülməz psixi şərait yaradılmasına yönəlmiş hərəkətlərə görə 300 manatdan 500 manatadək məbləğdə cərimə edilir.

Akkreditasiyadan keçmədən qurbanlara yardım göstərən qeyri-dövlət müəssisələrinin də məsuliyyətə cəlb edilməsi barədə həmin maddədə qeyd edilib.

Əgər məişət zorakılığı törətmiş şəxsin əməlində cinayət tərkibi yoxdursa, lakin zərərçəkmişin hüquqları pozulubsa, həmin şəxsə eyni və ya ona oxşar hərəkətlərin təkrarlanmaması barədə yazılı xəbərdarlıq edilə, həmçinin zərərçəkmişə qısamüddətli mühafizə orderi verilə bilər.

### Mühafizə orderi hansı hallarda tətbiq edilir?

**Mühafizə orderi məişət zorakılığı törətmiş şəxsin zərərçəkmişə qarşı edə biləcəyi hərəkətlərə tətbiq olunan məhdudiyyətlər haqqında aktdır. Bu order məişət zorakılığının qurbanlarını qoruyur.**

Zərərçəkmiş müraciət etdikdən sonra 24 saat ərzində zorakılığı törədən şəxsə xəbərdarlıq edir və dərhal zərərçəkmişə 30 gün müddətinədək qısamüddətli mühafizə orderi verir. Qısamüddətli mühafizə orderində zorakılığı törətmiş şəxsə bunun təkrar töredilməsi, zərərçəkmişin axtarılması, şəxsə narahatlıq gətirən digər hərəkətlərin edilməsi qadağan edilə bilər. Zorakılıq törədənin xəbərdarlıq və ya qısamüddətli mühafizə orderinin tələblərinə əməl etməməsi uzunmüddətli mühafizə orderinin verilməsi üçün əsasdır. Uzunmüddətli mühafizə orderində isə zorakılıq törətmiş şəxsin yetkinlik yaşına çatmamış uşaqlarla ünsiyyət qaydaları, yaşayış sahəsindən və ya birgə əmlakdan istifadə qaydaları, zərərçəkmişə tibbi və hüquqi yardım göstərilməsi ilə bağlı xərclərin zorakılıq törədən tərəfindən ödənilməsi şərtləri qeyd olunur. Həmçinin, mühafizə orderinin tələblərini icra etməyən şəxsin qanunvericiliyə uyğun olaraq məsuliyyətə cəlb olunması da izah edilir.

Qısamüddətli orderi əldə etmək üçün zərərçəkmiş icra hakimiyyətinə müraciət etməlidir. Belə müraciətləri hazırda Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin yerlərdə də fəaliyyət göstərən monitorinq qrupu araşdırır. Mülki Prosessual Məcəlləsinin 355-1-ci maddəsinə əsasən, uzunmüddətli mühafizə orderini əldə etmək üçün zərərçəkmiş yaşadığı yerin məhkəməsinə müraciət edə bilər.

Ərizə verildikdən 3 gün ərzində məhkəmə həmin müraciətə baxır. Uzunmüddətli mühafizə orderi 30-180 gün müddətinə verilir. Bu orderin verilməsi barədə işə şəxsi və ailə sirrinin yayılmasının qarşısını almaq və uşaqların maraqlarının təmin edilməsi üçün qapalı məhkəmə iclasında baxıla bilər. Orderin verilməsi barədə məhkəmə qərarı dərhal icraya yönəldilir və həmin vaxtdan müddəti hesablanır. Qəbul edilmiş qərardan verilən şikayət də icranı dayandırmır.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi
Gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması

### Riskli ailələrdə maarifləndirmə işi aparılmalıdır

**■ Mövzu ilə bağlı fikirlərini hafta.az-la bölüşən sosioloq Əhməd Qəşəmoğlu hesab edir ki, Azərbaycanda kişilərə qarşı şiddət qadınlarla müqayisədə daha güclüdür:** "Ortada çox böyük sosial bəla var, lakin insanlar başa düşmür. Bu gün Azərbaycanda qadına şiddət yoxdur, bu gün Azərbaycanda ailə faciəsi var. Sadəcə qadına şiddət bu məsələnin görünən tərəfidir.

Hazırda bizdə ailələrdə vəziyyət çox pisdir. 100 evlənəndən 27-si boşanırsa düşünün ki, bunun neçəsi evdə mübahisə edir. Səksən faizədək ailələrimizdə arzuolunmaz münasibət hökm sürür. Bu həmin ailənin yox, bütövlükdə xalqın faciəsidir. Həmin ortamda böyüyən uşağın da psixologiyası düzgün formalaşmır. İndi psixolji mərkəzlərin çoxuna getsəniz görəcəksiniz ki, ora gələnlərin əksəriyyəti azyaşlılardır. Buna görə biz "SOS" siqnalı çalmalıyıq, deməli deyilik ki, qadına qarşı şiddət var. Biz mənəvi dəyərləri qoruyub düzgün ailə modelinin formalaşmasına səbəb olmalıyıq. İndi bəzi feministlər, qurumlar hay salıb ki, qadına qarşı şiddət artıb. Kişilərə qarşı şiddət artıb, qadınlara qarşı yox. Qadın bütün günü psixoloji olaraq dili ilə kişiyə təsir edir. Kişinin də güclü olduğu tərəf fiziki tərəfidir, o da fiziki güclə ona təsir edir. Buna görə də söhbət ailədən getməlidir, fərddən yox. Şiddətin olduğunu iddia etməklə qadınlar dünyada Azərbaycan kişisi barədə mənfi obraz yaradırlar. Bu məslənin həlli yolu var. Təklif edirəm ki, sahələr üzrə sosial iş xidməti yaradılsın. Həmin xidmət də hər ailəni diqqət mərkəzində saxlasın ki, hansı ailədə riskli, gərgin vəziyyət var. Bu xidmət lazım gəldikdə maarifləndirmə işi də aparmalıdır".

### Ekspert rəyi

**Yeri gəlmişkən, Azərbaycanda 2010-cu ildə qəbul edilmiş "Məişət zorakılığı haqqında" qanun bu davranışları "yaxın qohumluq münasibətlərindən, birgə və ya əvvəllər birgə yaşamaqlarından sui-istifadə etməklə, şəxslərdən birinin digərinə qəsdən fiziki və ya mənəvi zərər vurması" kimi qiymətləndirir.**

Qanundan da göründüyü kimi, məişət zorakılığının qurbanları təkcə qadınlar və uşaqlar deyil, eyni zamanda kişilər də ola bilər. Məişət zorakılığına məruz qalan şəxslərin xəsarətinin dərəcəsindən asılı olaraq, qarşı tərəf cinayət və ya inzibati məsuliyyətə cəlb edilir.

✍ *Sevinc*

*Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi əsasında hazırlanıb.*

## BİR CÜMLƏ-BİR XƏBƏR

■ Humay Elçin qızı Əfəndiyeva Konstitusiya Məhkəməsinin hakimi təyin olunub, bununla bağlı qərar Milli Məclisin son iclasında qəbul edilib.

■ "Bu gündən Milli Məclisin yenilənmiş saytı artıq istifadəçilərin ixtiyarına verilib" - bunu Milli Məclisin dünən keçirilən iclasında parlamentin spikeri Sahibə Qafarova deyib.

■ Təhsil nazirinin müavini Məhəbbət Vəliyeva vəzifəsindən azad edilib, M.Vəliyeva 2018-ci ilin iyunun 27-dən təhsil nazirinin müavini vəzifəsini icra edirdi, o, buna qədər Bakı Şəhəri üzrə Təhsil İdarəsinin müdiri idi.

■ 2020-ci il ərzində İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinə 16174 müraciət daxil olub, Müraciətlərin 9128-i müayinə, müalicə və cərrahi əməliyyatlar, 3469-u əlillik məsələləri, 1378-i işə qəbul və əmək münasibətləri, 315-i dərman preparatları və tibbi cihazların təminatı, 277-si COVID-19, 8-i tibb müəssisələrinə göndərişlərin verilməsi və 1599-u isə digər məsələlər üzrə mövzuları əhatə edib.

■ İspaniya La Liqasının XXI turunda "Atletik"lə keçirilən oyun "Barselona"nın kapitanı Lionel Messi üçün əlamətdar olub, 20-ci dəqiqədə hesabı açan argentinalı superulduz ölkə çempionatında cərimə zərbəsindən 38-ci dəfə fərqlənib, bununla 34 yaşlı futbolçu öz rekordunu yeniləyib.

■ "Biz Keşikçidağ məsələsini siyasiləşdiricək istənilən addımdan çəkinməli, Azərbaycanla əlaqələr və Keşikçidağın gələcəyi ilə bağlı diqqətli olmalıyıq" - bu fikirləri Gürcüstanın Baş naziri Giorgi Qaxaria deyib.

■ Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 77 yeni yoluxma faktı qeydə alınıb, 160 nəfər müalicə olunaraq sağalıb, analiz nümunələri müsbət çıxmış 4 nəfər vəfat edib.

■ Azərbaycanın ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək fondu olan "YAŞAT" Fonduna toplanan vəsait 28 milyon manatı ötüb, Həmin vəsaitdən 16 434 136.55 manatı fiziki şəxslər, 11 613 228.07 manatı isə hüquqi şəxslər tərəfindən ödənilib.

■ Milli Məclis Aparatının Katibliyinin rəisi vəzifəsi Teymur Tağıyevə həlavə olunub, T.Tağıyev Yevlax Rayon İcra Hakimiyyətinin başçısı Anar Tağıyevin qardaşıdır, Anar Tağıyev isə Bakı meri Eldar Əzizovun kürəkənidir.

■ Qırğızıstan Prezidenti Sadır Japarov Müdafiə Nazirliyi yaratmaq barədə qərar qəbul edib, Qırğızıstan Müdafiə Nazirliyi 1993-2015-ci illərdə mövcud olub.

■ Milli Məclis "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında qarşılıqlı olaraq vizadan azad etmə haqqında 25 fevral 2020-ci il tarixində Bakı şəhərində imzalanmış Sazişə dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında 1 saylı Protokol"un təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsini ratifikasiya edib.

■ Rusiyanın müdafiə naziri Sergey Şoyqu ilə Ermənistanın müdafiə naziri Vaqarşak Arutyunyan arasında telefon danışığı baş tutub, danışıqlar çərçivəsində Qarabağdakı vəziyyət müzakirə olunub.

■ Konstitusiya Məhkəməsinin hakimi Südabə Həsənova təqaüdə çıxıb, 74 yaşlı hakim son yaş həddi ilə əlaqədar təqaüdə göndərilib.

■ Ermənilər Füzuli rayonun işğal altında olmuş Aşağı Seyidəhmədli kəndində Ermənistan istehsalı olan Piyada Əleyhinə minalarından istifadə edərək sistemsiz mina sahələrinə bir çox üçlü və dördlü minalar basdırıb.

## Sosial

# Avtoxuliqanlığa görə cəzalar dəyişdirilir

**Azərbaycanda avtoxuliqanlığa görə cəzalar dəyişdirilir. Bununla bağlı Milli Məclisin yaz sessiyasında müzakirə ediləcək İnzibati Xətalar Məcəlləsinin 511-ci maddəsinə dəyişiklik təklif edilir.**

Dəyişikliyə əsasən, avtoxuliqanlıq hallarının törədilməsinə görə nəqliyyat vasitəsini idarə etmək hüququ bir il müddətinə məhdudlaşdırılmaqla beş yüz manatdan yeddi yüz əlli manatadək məbləğdə cərimə edilir və ya nəqliyyat vasitəsini idarə etmək hüququ bir il müddətinə məhdudlaşdırılmaqla işin hallarına görə, pozuntunu törədənin şəxsiyyəti nəzərə alınmaqla, on beş gündən bir ayadək müddətə inzibati həbs tətbiq olunur. Hazırda isə cəzalar daha artıqdır. Belə ki, məcəllənin hazırki eyni bəndinə əsasən, nəqliyyat vasitəsini idarə etmək hüququ iki il müddətinə məhdudlaşdırılmaqla, yeddi yüz əlli manatdan min manatadək məbləğdə cərimə edilir və ya nəqliyyat vasitəsini idarə etmək hüququ iki il müddətinə məhdudlaşdırılmaqla işin hallarına görə, pozuntunu törədənin şəxsiyyəti nəzərə alınmaqla, bir aydan iki ayadək müddətə inzibati həbs tətbiq olunur. Dəyişiklik müzakirələrdən sonra səsvermaya qoyularaq birinci oxunuşda qəbul edilib.

# Qəlyan üçün tütünlərə aksiz vergisi tətbiq edilsin



**Qənirə Paşayeva,**
Milli Məclisin deputatı

**"Kəlbəcər və Zəngilanın işğaldan azad olunmasından sonra Azərbaycanda zərgərlik sahəsinin inkişafı ilə bağlı daha yaxşı perspektivlər yaranır".**

Bunu Milli Məclisin deputatı Qənirə Paşayeva deyib. Deputat bildirib ki, qızıldan və gümüşdən hazırlanan zərgərlik məhsullarının istehsalı üçün dəzgahların istehsalı vergidən azad ediləcək: "Bunu dəstəkləyirik. Ancaq vergi Məcəlləsinə daha bir maddə əlavə edilməlidir. Kitablar, mətbəə məhsulları üzərində 18 % ƏDV tətbiq edilir. Dünyada belə təcrübə yoxdur. Qardaş Türkiyədə bu 8 % idi, onu da ləğv etdilər.

Qonşu ölkələrin hamısında bu faizlər aşağıdır. Vergilər Nazirliyi bununla bağlı açıqlamasında məsələnin hökumət tərəfindən müzakirə edildiyini demişdi. Ölkədə istehsal olunan kitab və dərgilərin sayı bəllidir. Bu dəyişikliklər kitabın daha da geniş yayılması baxımından çox əhəmiyyətli olardı". Deputat bildirib ki, qəlyan istifadəsi üçün tütünlərə aksiz dərəcəsi tətbiq edilmir: "Bu, digər tütün məhsulları kimi çox zərərli maddədir. Ölkədə qəlyandan istifadənin sayı getdikcə artır. Ona görə də qəlyan üçün tütünləri də istisna etməməliyik".

# Vətən müharibəsində iştirak edən doktorantlara 3 ay möhlət veriləcək

**Vətən müharibəsində iştirak edən doktorantlara 3 ay möhlət verilməsi nəzərdə tutulur. Milli Məclisin iclasında birinci oxunuşda müzakirəyə çıxarılan "Hərbi vəzifə və hərbi xidmət haqqında" qanunun 21.1.4-cü maddəsinə dəyişiklik təklif edilir.**



Təklif olunan dəyişikliyə əsasən, doktorantураya qəbul üzrə ilk imtahandan müvəffəqiyyətlə keçən çağırışçılara 3 ay müddətinə möhlət veriləcək. İlk imtahandan müvəffəqiyyətlə keçən doktorantlar imtahanlarını verə biləcəklər. Qeyd edək ki, hazırda əyani təhsilalma formasında bakalavriatda, magistraturada, doktoranturada (adyunkturada), əsas (baza ali) tibb təhsili və rezidenturada təhsil alanlara təhsilini bitirənədək həmin çağırışçılara yalnız bir dəfə möhlət verilir. Qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

Siyasət

# Rusiyada həftəsonu aksiyaları



Keçən həftəsonu Rusiyanın bir çox şəhərlərində yenidən icazəsiz aksiyalar təşkil edildi. Səbəb isə yenə də dəyişməz olaraq qalırdı - həbsdə saxlanılan müxalifətçi Aleksey Navalnının müdafiəsi. BBC-nin məlumatına görə, yanvarın 31-də keçirilən aksiyalara Rusiyanın şərq bölgələrindən start verilib. OVD-Info nəşrinin məlumatına görə, etiraz aksiyalarının polis tərəfindən dağıdılması zamanı həbs olunmuş iştirakçıların sayına görə yanvarın 31-də rekord vurulub - 4567 nəfər saxlanılıb. Bir həftə əvvəl, yanvarın 23-də saxlanılanların ümumi sayı 3980 nəfər olub. Yanvarın 31-də paytaxt Moskva üzrə saxlanılmış etirazçıların sayı da rekord səviyyədə olub - 1450 nəfər.



Moskvada polis tərəfindən saxlanılanların arasında Aleksey Navalnının xanımı Yuliya Navalnaya da olub. Onun vəkili Svetlana Davıdovanın sözlərinə görə, polis bölməsində bir neçə saat saxlandıqdan sonra Yuliya Navalnaya evə buraxılıb.

Ümumiyyətlə Qərb ölkələrində də Navalnı və münasibət birmənalı deyil. Onu Rusiyanın müxalifətdəki əsas siyasi gücü sayanlar da var, rus millətçisi adlandıranlar da.

■ **Keçən həftə olduğu kimi, bu dəfə də Avropa Birliyinin xarici məsələlər üzrə ali nümayəndəsi Jozef Borell 31 yanvar aksiyalarında Navalnı tərəfdarlarının həbsini pisləyən bəyanatla çıxış edib.**

"Mən Rusiyada təkrarən etirazçıların həbsindən və jurnalistlərə qarşı davranışlardan təəssüfənirəm. İnsanlar özlərinin nümayiş hüquqları reallaşdırmaq imkanı qazanmalıdır. Rusiya beynəlxalq öhdəliklərini yerinə yetirməlidir", - deyə ali nümayəndə "Tvitter" hesabında yazıb.

AB-dən başqa ABŞ-ın Rusiyadakı səfirliyi də baş verən olayları tənqid edib. Səfirlik daha çox jurnalistlərin saxlanmasına diqqət çəkib: «Rusiya hakimiyyətini beynəlxalq insan hüquqları və azad mətbuata hörmət etməyə çağırırıq".

■ **Rusiya Xarici İşlər Nazirliyi bu müraciətə cavab olaraq cənab Blinkeni "qanunu pozanları" dəstəkləməkdə ittiham edib, ABŞ-ı Rusiyanın daxili işlərinə "müdaxilə etməkdə" günahlandırıb.**

"Şübhə yoxdur ki, etirazları təşviq etməyə yönəlmiş bu kimi hərəkətlər Rusiyanı geri çəkilməsi üçün həyata keçirilən strategiyanın bir parçasıdır", nazirliyin bəyanatında belə deyilir. "Biz suveren dövlətin daxili işlərinə müdaxilənin dayandırılmasını tələb edirik".

Bu arada yanvarın 23-də ABŞ səfirliyinin etiraz aksiyaları ilə bağlı xəritəni saytında dərc etdirməsi iki ölkə arasında siyasi gərginlik yaratmışdı. Səfirlik bu addımını Rusiyadakı amerikalıların təhlükəsizliyi amili ilə əsaslandırıb.

■ **ABŞ-ın Moskvadakı baş diplomatı Con Sallivanın sözlərinə görə, səfirliyin etiraz aksiyaları ilə bağlı mövqeyi ondan ibarətdir ki, amerikalılar bu nümayişlərə qatılmamalıdır.** Hər zaman dinc aksiyaların sonradan iğtişaşlara çevrilə bilmə ehtimalı var. "Bu səbəbdən biz vətəndaşları xəbərdarlıq etməliyik. Biz məhz bunu etmişik", - deyə səfir bildirib.



Onun sözlərinə görə, Navalnı olayı ilə bağlı iki ölkənin yanaşmasında kəskin fərq var. ABŞ müxalifət liderinin zəhərləndiyinə dair sübutların olduğu qənaətindədir.

"Ümumilikdə Navalnı işi Amerika-Rusiya münasiətləri sahəsinə aid deyil. Onun ətrafında yaşanan olaylar iki ölkə arasında, həmçinin kimyəvi silahların qadağan edilməsi təşkilatı səviyyəsində müzakirə edilməlidir", - deyə diplomat bildirib.

■ **Aleksey Navalnı ilə bağlı situasiya olduqca qarmaqarışıqdır. Bu sözləri Çexiya Prezidenti Miloş Zeman Tvitter səhifəsində yazıb.**

"Onu demokratiya uğrunda mübarizə aparan şəxs kimi qəbul edirlər. Oxumuşam ki, o, Krımın anneksiyasını dəstəkləyib, bir neçə millətçi nümayişdə iştirak edib, daha sonra isə Stalin repressiyalarını təqdir edib, məsələn çeçenlərə qarşı... Hələ bir neçə başqa işlər də tapıla bilər", - deyə prezident bildirib. M.Zeman Navalnını rus millətçisi adlandırıb.

■ **Etiraz aksiyaları ilə bağlı Rusiya patriarxı Kirillin də fikirləri maraqlıdır.** Onun sözlərinə görə, bu gün gənc nəslin böhranı mövcuddur. Bu cür vəziyyət gözlənilməz deyildir. Gənclərin belə vəziyyətə düşməsinə isə kütləvi informasiya vasitələri, ilk növbədə, internet və televiziya səbəb olur. "Valideynlərin bu informasiya mühiti ilə rəqabəti çətindir. Uşaqların ürəklərində dağıdıcı təsirlərə layiqli cavab verə bilmə inancı olmalıdır" - patriarx deyib.

■ **Jurnalist və təşviqatçı, 2015-ci ildə Moskvada öldürülən müxalif siyasətçi Boris Nemtsovun qızı Zhanna Nemtsova bazar günü Kremlin tənqidçisi Alexey Navalnının "uzun illər ərzində həbsxanada saxlanılacağına" əmin olduğunu söyləyib.**

Moskvadakı etirazlara qatılan Nemtsova BBC radiosuna "Alexey Navalnını dəstəkləməyin yeganə yolu küçələrə axışmaqdan keçir", - deyib. "Başqa seçimimiz yoxdur və məhz bu yolla Navalnının həbsxanada təhlükəsizliyini qismən təmin edə bilərik. Bir çox insanın, xüsusən də gənclərin itirəcəyi bir şey yoxdur", - xanım Nemtsova fikrini belə tamamlayıb.

■ **Qeyd edək ki, tanınmış rusiyalı jurnalist və ictimai xadim Maksim Şevçenko Tatarıstanın paytaxtı Kazan şəhərində Aleksey Navalnı tərəfdarlarının icazəsiz aksiyası zamanı müvəqqəti saxlanılıb.** Hüquq-mühafizə əməkdaşları sənədlərini yoxladıqdan sonra o, sərbəst buraxılıb.

■ **Aleksey Navalnının rəhbərlik etdiyi Korrupsiyaya Qarşı Mübarizə Fondu ABŞ Prezidenti Co Baydenə Rusiya Prezidenti Vladimir Putin və 35 yüksək çinli məmura qarşı sanksiya tətbiq etməsilə bağlı çağırış edib. Bu barədə fondun icraçı direktoru Vladimir Aşurkov deyib.** "Məktub birbaşa ABŞ prezidentinə ünvanlanıb. ABŞ korrupsiya ilə bağlı olan şəxslərə çoxdan sanksiya tətbiq edir. Əgər kimsə bunu edəcəksə, bu, ABŞ-dır", - Aşurkov bildirib. Onun sözlərinə görə, Navalnının komandası həmin siyahını Avropa İttifaqı və Böyük Britaniyaya da göndərməyi planlaşdırır.



## "Putinin sarayı" təmir edilir

■ **Bu arada, 23 yanvar aksiyalarından öncə 100 milyondan çox baxış toplayan "Putinin sarayı" filmində haqqında söz açılan Rusiyanın Gelencik şəhəri yaxınlığında yerləşən, Prezident Vladimir Putinə aid olduğu iddia edilən sarayda ilk dəfə çəkiliş aparılmasına icazə verilib. Çəkilişi "Mash" teleqram kanalının baş redaktoru, jurnalist Maksin İksanov aparıb.**

Jurnalistə bütün otaqları gəzmək üçün yalnız 1 saat vaxt verilib. M.İksanovun sözlərinə görə, onun bələdçisi sarayın tikintisi üzrə texniki nəzarətin nümayəndəsi olub. KİV əməkdaşının ora kimin göstərişi ilə buraxılması açıqlanmayıb. Videoreportajdan sarayda əsaslı təmir işlərinin getdiyi məlum olub. Jurnalistin bələdçisi təmir-tikinti işlərinin 5-6 il ərzində bitəcəyini bildirib.

"Meduza" nəşri isə saray haqqında yeni təfərrüatları öyrənə bilib. Məlum olub ki, V.Putin İdokopas burnunda yerləşən sarayı nadir hallarda ziyarət edir. Nəşrin hesablamalarına görə, dövlət başçısı orada azı 4 dəfə olub. Prezidentin hər səfərində orada ciddi hazırlıq işləri başlanır.

Diqqətçəkən məqamlardan biri imarətin bunkeridir. Belə ki, iqamətgahın yeraltı kompleksi 16 mərtəbədən ibarətdir və yerləşdiyi İdokopas burnunu dəlir. Məlumata görə, aşağı düşmək üçün lift təxliyə ehtimalına görə əsas evin bir neçə metrliyində yerləşir. Ümumilikdə, burnun dərinliyinə daxil olmaq üçün 3 giriş mövcuddur. Şaxtaların tikintisi (2007-2011) 3 milyard rubla başa gəlib. Bildirilib ki, saraydakı belə bunkerlərin sayı 2 olmalı idi, ancaq 2008 maliyyə böhranına görə plandan vaz keçilib.

Bundan başqa, malikanədəki məşhur akvadiskotekadan 2 ədəd olduğu məlum olub. İşıq və musiqili fəvvarənin (onun şırnaqları rəqs edir, Kayli Minouqun trekləri və fransız şansonun sədaları altında işıqlandırılır) bənzərini iqamətgahın şato olan ərazisində - Divnomorskda quraşdırılıb. Şatonun yiyəsi hələlik müəyyənləşdirilməyib. Bu tikintiyə "Dimanın yaylağı" adı verilib. Ora Rusiyanın keçmiş prezidenti Dmitri Medvedevin dövründə tikilib.

Qeyd edək ki, "Mash" Rusiyada məşhur teleqram kanalıdır. Kanalın əsasını baş direktoru erməni iş adamı Aram Qabrelyanov olan "News Media"nın "Life" nəşrinin baş redaktoru Nikita Moqutin qoyub. "Meduza" isə qərargahı Latviyanın paytaxtı Riqada yerləşən internetnəşrdir. Nəşrin qurucusu "Lenta.ru"nun sabiq baş redaktoru Qalina Timçenko olub.

Göründüyü kimi, 2021-ci ilin ilk ayında yaşananlar, artıq Rusiyada siyasi həyatın qaynar qazana çevrildiyini söyləməyə əsas verir. Bir çox Qərb analitikləri hadisələrin artan fonla inkişaf edəcəyi halda Rusiyaya qarşı yeni sanksiyaların tətbiqi ehtimalını da önə sürürlər.

Rusiyada 1 milyondan artıq soydaşımızın yaşadığını, Dağlıq Qarabağda rus sülhməramlılarının yerləşdirildiyini, həmçinin ticari-iqtisadi münasibətlərin səviyyəsinə görə Rusiyanın Azərbaycanın xarici ticarət tərəfdaşları arasında ilk yerlərdə dayandığını nəzərə alsaq, bu ölkədə yaşananların Bakı üçün nə dərəcədə əhəmiyyətli olduğunu söyləmək mümkündür. Rusiyanın aqressiv siyasətə meyil etməsinin qonşuları üçün hansı problemləri yaratdığını yaxın keçmişin təcrübəsi artıq göstərib.

✍ *Azad Əliyev*

Sorğu

# Əhali hökumətin pandemiyaya qarşı mübarizəsindən razıdır

**Azərbaycanda COVID-19 pandemiyası ilə mübarizə sahəsində atılan addımlar və əldə olunan nəticələr ölkə əhalisi tərəfindən məmnunluqla qarşılanır. Keçirilən sosioloji tədqiqatlar da sübut edir ki, vətəndaşlar onların təhlükəsizliyi və sağlamlığı istiqamətində görülən kompleks tədbirləri yüksək qiymətləndirirlər.**

Nüfuzlu "Gallup International" təşkilatının dünyanın 47 ölkəsində keçirdiyi qlobal "İlin yekunları" tədqiqatının nəticələrinə görə, vətəndaşların hökumətin pandemiya ilə mübarizəsindən razılıq səviyyəsinə görə Azərbaycan liderlər sırasındadır. Belə ki, Azərbaycanda əhalinin böyük əksəriyyəti hökumətin koronovirusla bağlı yaranmış vəziyyətin öhdəsindən uğurla gəldiyi qənaətindədir.



Tədqiqata görə, ilk iki yerdə Vyetnam və Cənubi Koreya qərarlaşıb - bu ölkələrdə əhalinin 90-100 faizi hökumətin tədbirlərindən razıdır. Hindistan və Azərbaycanda isə rəyi soruşulanların 86 faizi bu məsələdə hökumətə dəstəklərini ifadə ediblər.

Qeyd edək ki, sorğuda 47 ölkədən 44 mindən artıq insan iştirak edib. 2010-cu ildən "Oxford" universitetinin nəzdində fəaliyyət göstərən "Blavatnik School of Government" da bu istiqamətdə sosioloji tədqiqat keçirib. Tədqiqat çərçivəsində 2020-ci ilin martından başlayaraq dünyanın 180-dən çox ölkəsinin COVID-19 ilə bağlı siyasətinə dair xüsusi indeks hazırlanır və gündəlik olaraq yenilənir.

Bu il yanvarın 1-nə olan nəticələrə görə, Azərbaycan bu indeks üzrə 84,26 bal toplayaraq Gürcüstan, Yunanıstan, Honduras, İtaliya, Liviya, Hollandiya və Venesuela ilə birlikdə 4-11-ci yerləri bölüşür. Ölkəmizin bu indeksdə ən yüksək reytinqi 2020-ci ilin avqustunda Honduras və Omandan sonra 93,52 bal ilə 3-cü yerdə qərarlaşması olub.

XƏBƏR LENTİ

## FHN təkzib etdi



**Fövqəladə Hallar Nazirliyi Zığ qəsəbəsində yerləşən koronaviruslu (COVID-19) xəstələrin müalicəsi üçün nəzərdə tutulan modul tipli hospitalda koronavirus infeksiyasına yoluxmuş uşaqlar üçün xüsusi çarpayıların yerləşdirilməsi barədə yayılan xəbərlərə aydınlıq gətirib.**

Hafta.az-ın nazirliyin saytına istinadən verdiyi məlumatda bildirilir ki, son günlər bəzi sosial şəbəkə səhifələrində Fövqəladə Hallar Nazirliyinin Tibb Mərkəzinin Bakı şəhərinin Zığ qəsəbəsində yerləşən koronaviruslu (COVID-19) xəstələrin müalicəsi üçün nəzərdə tutulan modul tipli hospitalında koronavirus infeksiyasına yoluxmuş uşaqlar üçün xüsusi çarpayıların yerləşdirilməsi barədə həqiqətə uyğun olmayan məlumatlar yayılır: "Fövqəladə Hallar Nazirliyi olaraq bu məlumatları qəti şəkildə təkzib edir və kütləvi informasiya vasitələri və sosial şəbəkə istifadəçilərinə bir daha müraciət edərək rəsmi olmayan, dəqiqləşdirilməmiş məlumatları yaymamağa çağırır, ictimaiyyətdən isə yalnız rəsmi məlumatlara etibar etməyi xahiş edirik".

## Rəqabət Məcəlləsinin qəbulu gecikməməlidir

**"Rəqabət Məcəlləsinin qəbulunun gecikməsi yolverilməzdir". Bunu Milli Məclisin deputatı Əli Məsimli deyib.**

Deputat bildirib ki, bu məcəllə qəbul edilsə, çox müsbət dəyişikliklər olacaq: "Xüsusilə qeyri-neft sektorunun inkişafı üçün Rəqabət Məcəlləsinin qəbuluna ehtiyac var". Deputat qeyd edib ki, yanvarın 30-da Prezidentin fərmanına əsasən, dövlət nəzarət informasiya sistemi yaradılıb: "Qanunvericiliklə qanunlara nəzarət Milli Məclisdədir. Biz buna görə də qanunlara nəzarətin gücləndirilməsi üçün işlək mexanizmi tapmalıyıq. Biz qanunların təftişi ilə əlaqədar xüsusi işçi qrupları yaratmalıyıq".

## Azərbaycan-Türkiyə Birgə Media Platforması yaradılıb

**Azərbaycan və Türkiyə arasında Birgə Media Platforması yaradılıb. Milli Məclisin iclasında "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında media sahəsində strateji əməkdaşlıq haqqında" Anlaşma Memorandumunun təsdiq edilməsi barədə" qanun layihəsi müzakirəyə çıxarılıb.**



Sənədə əsasən, Birgə Media Platformasının məqsədi Azərbaycan-Türkiyə ikitərəfli əlaqələrini və əməkdaşlığını media və kommunikasiya sahəsində gücləndirməklə strateji media ortaqlığının yaradılmasıdır. Platforma çərçivəsində iki ölkə arasında sağlam media şəbəkəsinin infrastrukturunun yaradılması aşağıdakı üsullarla həyata keçiriləcək:

- *Media sahəsində bilik, təcrübə və mənbələrin paylaşılması;*
- *İki ölkənin media sahəsində fəaliyyət göstərən rəsmi qurumları ilə birgə işlərin aparılması;*
- *Beynəlxalq arenada rast gəlinən dezinformasiyaya qarşı birgə mübarizə aparılması və dünya ictimaiyyətinin düzgün məlumatlandırılması;*
- *Televiziya və kino sahəsində ortaq işlərin həyata keçirilməsi;*
- *Müxtəlif media və sektor təmsilçiləri ilə tərəfdaşlığın qurulması;*
- *Peşə təhsili və mübadilə proqramlarının təşkil edilməsi;*
- *İki ölkənin fikir öndərləri arasında rabitə körpüsünün qurulması.*

Sənəddə bildirilir ki, Anlaşma Memorandumunun qüvvəyə minməsindən sonrakı 3 ay ərzində Türkiyə və Azərbaycan arasında media platformasının həyata keçirilməsi üzrə məqsədyönlü, əhatəli planın hazırlanması üçün birgə işçi komissiya yaradılacaq. Qanun layihəsi səsə qoyularaq bir oxunuşda qəbul edilib.

## Hulusi Akardan türkiyəli generala tapşırıq



**Dağlıq Qarabağda atəşkəsə nəzarət üzrə Türkiyə-Rusiya Birgə Mərkəzinin köməyi ilə atəşkəsin davamlı olmasına, sabitliyin təmin edilməsinə və sülhün bölgədə hakim olmasına ümid edirik. Bu barədə Türkiyənin milli müdafiə naziri Hulusi Akar bildirib.**

"Bölgədəki ölkələrin qarşılıqlı olaraq bir-birlərinin haqq və mənafelərinə hörmət etməsinə, beynəlxalq hüquq çərçivəsində firavan şəkildə yaşamalarına ümid edirik. İstəyimiz budur. Bu məsələni cənab prezidentimiz dəfələrlə vurğulayıb. Bunlar Azərbaycan Prezidenti cənab İlham Əliyev və Rusiya Prezidenti cənab Vladimir Putinlə də müzakirə olunub. İstəyimiz bölgədə sülh və sabitliyin hökm sürməsidir", - deyə türkiyəli nazir vurğulayıb.

## Dmitri Medvedevdən status açıqlaması

**"Həll edilməyən Qarabağın statusu məsələsini indi müzakirə etməkdənsə, ən yaxşısı gələcəyə saxlamaqdır. İndi onu müzakirə etmək mümkün deyil".**

Bunu Rusiya Təhlükəsizlik Şurası sədrinin müavini, keçmiş prezident Dmitri Medvedev bildirib. "Hazırda statusun müzakirəsi ciddi gərginliyə yol açır. Tərəflərin bu məsələdəki mövqeləri də kəskin fərqlənir. Hətta Ermənistanın daxilində belə diskussiyalar gedir. Xatırladım ki, Ermənistan Qarabağın müstəqilliyini tanımayıb. Bunu nəyə görəsə unudurlar, amma əslində bu belədir. Ona görə də status məsələsi gələcəyə saxlamaq daha yaxşıdır", - o qeyd edib.

***İşğaldan azad olunmuş ərazilərimizin sərhəd bütövlüyü, sülhməramlı missiyanın rolu və Laçın dəhlizi vasitəsi ilə işğalçı dövlətin nümayəndələrinin özbaşına hərəkətlərinə yaratdığı imkanlarla müşahidə olunan hallar ölkədə birmənalı qarşılana bilməz. Ekspertlərin fikrincə, Türkiyə-Rusiya Monitorinq Mərkəzinin fəaliyyəti sülhməramlılarla bağlı yaranan problemlərin və yarımçıq qalan bir çox məsələlərin həllini gerçəkləşdirə bilər. Monitorinq Mərkəzində Türkiyənin iştirak etməsi regionda ədalətin bərpası ilə bağlı balansın yaranacağına dair ümidləri artırıb. Ümumilikdə Monitorinq Mərkəzi regiona nə vəd edir? Bu məsələ ilə bağlı "Həftə içi"nə müsahibə verən istefada olan polkovnik, hərbi ekspert Şair Ramaldanov maraqlı müanslara diqqət çəkib.***

# Rusiya sülhməramlıları sanki ermənilərə tabedirlər...

**Şair Ramaldanov,**
istefada olan polkovnik,
hərbi ekspert



*"Zaman keçdikcə Türkiyənin Monitorinq qrupunda təmsil olunmasının əhəmiyyətini görəcəyik*

## Müsahib

***- Şair müəlim, Qarabağda atəşkəs rejiminə nəzarət üzrə yaradılan Rusiya-Türkiyə Monitorinq Mərkəzi, artıq Ağdam rayonunda fəaliyyətə başlayıb. Mərkəz Azərbaycanın işğaldan azad olunan bölgələrində hansı əhəmiyyətə malikdir?***

- Üçtərəfli bəyannaməyə əsasən Monitorinq Mərkəzinin yaradılması və orada Türkiyənin tərəf kimi Rusiya ilə birgə fəaliyyətinin nəzərdə tutulması Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin müdrik siyasəti nəticəsində baş tutdu.

Bunun əhəmiyyəti çox böyükdür. Hesab edirik ki, Türkiyə işğaldan azad olunmuş torpaqlarda Azərbaycanın maraqlarının obyektiv şəkildə qorunması və sülhün bərqərar olmasına imkan yaradacaq. Monitorinq Qrupu, xüsusilə bölgədə sülhməramlı qüvvələrin fəaliyyətinə nəzarət edəcək.

Məlumdir ki, sülhməramlı qüvvələrin fəaliyyəti beynəlxalq normativ sənədlərə əsasən nizamlanır. Azərbaycan tərəfi üzərinə götürdüyü öhdəçiliyi tam şəkildə yerinə yetirib və hal-hazırda Rusiyanın sülhməramlıları Azərbaycan ərazisindədir. Monitorinq qrupu gələnə kimi biz sülhməramlılarla bağlı bir sıra problemlərlə qaşılaşdıq. Bu da ondan ibarətdir ki, Azərbaycan öz ərazilərində gedən proseslərlə bağlı onlardan heç bir məlumat ala bilmir. Rusiya sülhməramlı qüvvələri nəzarətində olan ərazilərdə Azərbaycanın maraqları təmin etmir. Rusiyanın sülhməramlı qüvvələri demək olar ki, özlərinə aid olmayan məsələlərlə məşğul olurdular.

Məsələn, Laçın dəhlizi nəzarətsizdir. Laçın dəhlizindən kim gəlir, kim gedir, bilmirik. Unudurlar ki, bura Azərbaycan ərazisidir və Azərbaycan öz ərazi bütövlüyünü bərpa edərək, Ermənistan və digər ölkələrlə dövlət sərhəddini bərpa edib. Sərhəd xidməti və yaxud sərhəddən keçid digər ölkələrdə necədirsə, o, Ermənistana da şamil olunmalıdır. Ancaq Rusiyanın sülhməramlı qüvvələri Azərbaycanın Laçın dəhlizindən öz bildiyi kimi istifadə edir. Bu barədə heç bir məlumat verilmir və Ermənistanın rəsmiləri, xarici işlər naziri heç bir icazə olmadan Azərbaycan ərazisinə gəlir, separatçı rejimlə görüşür. Nə haqda danışdıqlarını bilmək üçün yanlarında olmaq lazım deyildir. Təbii ki, bu görüş heç də Azərbaycanın xeyrinə olmayan görüşdür.

Digər tərəfdən, faşist Njdenin heykəlinin gətirilib Azərbaycan ərazilərində qoyulması faktının özü də təzadlıdır. Bu, məqsədyönlü şəkildə, Azərbaycanı qıcıqlandırmaq və müəyyən proseslərə təkan vermək üçün atılan addımlardır.

Sülhməramlı qüvvələr obyektiv şəkildə neytral mövqe tutaraq, Azərbaycan ərazisində tərəflər arasında sülhün bərqərar edilməsinə yönələn addımlar atmalıdır. Bəs nə görürük? Azərbaycan ərazisində hansısa balaca erməni kəndləsi Kəlbəcərdə yolu bağlayıb yüklərin daşınmasının qarşısını almağa çalışır. Rusiya sülhməramlıları elə davranırlar ki, sanki ermənilərə tabedirlər. Halbuki, Azərbaycanın öz ərazilərində bərpa işləri aparmaq üçün orada yükdaşıyan maşınlar hərəkət etməlidir.

Bundan başqa, gəlin biz ermənilərin kütləvi şəkildə Azərbaycanın işğaldan azad olunmuş ərazilərinə köçürülməsi prosesinə diqqət çəkək.

Azərbaycan ərazisinə Ermənistandan, hansı ki, bu erməni sosial mediasında öz əksini tapıb, məcburi şəkildə ermənilərin kütləvi şəkildə gətirilməsini həyata keçirirlər. Bu, sülhməramlılara aid olan məsələlər deyildir. Məhz Monitorinq Nəzarət Mərkəzi bu cür xoşagəlməz proseslərin ola biləcəyini və gələcəkdə Azərbaycanın Rusiya sülhməramıları ilə üz-üzə duracağını nəzərə alınaraq təklif olunmuşdu. Ölkə başçısının müdrikliyi ondan ibarətdir ki, məhz Türkiyənin də Minsk Qrupunda olan Rusiya ilə bir yerdə fəaliyyət göstərməsini reallaşdırdı. Düşünürəm ki, Türkiyə qardaş ölkə olaraq beynəlxalq normalar çərçivəsində işğaldan azad edilmiş ərazilərdə sülhün bərqərar edilməsi prosesində bizim maraqlarımızı qoruyacaq. Bu isə o ərazilərə Azərbaycan əhalisinin qaytarılması üçün yeni imkandır. Bölgədə infrastruktirin bərpasına, əhalinin öz yerlərinə qayıtmasına çox illər lazım olacaq. Bu vaxt ərzində ermənilərin orda məskunlaşmasının qabağını almaq üçün Monitorinq qrupu vacib idi. Azərbaycan tərəfi əvvəlcədən də bəyan eləmişdi ki, işğaldan azad olunan ərazilərdə əvvəldən yaşayan erməni ailələri qala bilər. Görürük ki, proses başqa cür gedir. Monitorinq Qrupu işləməyə başlayandan sonra qısa vaxt ərzində bu istiqamətdə də nəticələri görəcəyik. Prezidentin atdığı addımı indiki vəziyyətdə dərk edə bilmirik. Zaman keçdikcə Türkiyənin Monitorinq qrupunda təmsil olunmasının əhəmiyyətini görəcəyik. Türkiyə güclü dövlətdir və onun Azərbaycanın yanında olması, Azərbaycanın maraqarını təmin etməsi çox vacibdir. Azərbaycan beynəlxalq hüquqa uyğun hərəkət edir. İstəyir ki, torpaqlarında sülh bərpa olunsun və işğaldan azad olunan ərazilərdə millətindən asılı olmayaq bütün vətəndaşları, qanunlara hörmət edərək bərabər səviyədə yaşasınlar. Monitorinq qrupu bu istiqamətdə də özünəməxsus vacib əhəmiyyətə malikdir.

***- Monitorinq qrupunun fəaliyyəti altında Laçın dəhlizini bağlamaqla sərhədin bütövlüyü və sülhün təminatı ilə bağlı istədiyimiz nəticəyə nail ola bilərikmi? Əgər bizim sərhəd bütövlüyümüz təmin olunubsa, qalib ölkə kimi şərtləri biz diqtə ediriksə, Laçında sərhəd nəyə görə açıq saxlanımalıdır? Nəyə görə bu kontekstdə Rusiya sülhməramlılarından asılı vəziyyətdə qalmalıyıq?***

- Üçtərəfli bəyannamənin bəndlərinə uyğun olaraq müəyyən öhdəlik götürülüb. Təbii ki, biz sülhməramlılardan asılı deyilik. Sadəcə olaraq vəziyyətlə bağlı olaraq sülhməramlıların ermənilərin sıx yaşadığı Azərbaycan ərazilərində olmasını nəzərə alsaq, onların ermənilərin müəyyən bir təsiri altına düşmələri halları var.

Yerlərdə vəzifəni icra edən icraçılardır. Onlar vəziyyəti hansı formada komandanlığa məruzə edirlərsə, o formada da qərarlar qəbul olunur. Monitorinq qrupunda isə iki tərəf - Rusiya və Türkiyənin mütəxəssisləri beynəlxalq normalar çərçivəsində qəbul olunmuş sənədləri analiz edib, Rusiya və Türkiyə prezidentlərinə məruzə edəcəklər, Birinci şəxslər də qərarlar verərək onun icrasını tövsiyə edəcəklər.

O ki qaldı Laçın dəhlizinə, biz onu bağlaya bilmərik. Türkiyənin bununla bağlı çox maraqlı mövqeyi var. Türkiyə Laçında Azərbaycanın Dövlət və Gömrük Sərhədi Xidmətinin funksiyasının bərqərar edilməsi ilə bağlı məsələ qoyub. Yəni, biz o dəhlizi bağlamırıq, o dəhlizdən müəyyən gediş-gəliş olacaq. Ancaq bu dəhliz Azərbaycan ərazisi olduğu üçün orda hərəkət məhz Azərbaycanın müvafiq Gömrük və sərhəd xidmətinin fəaliyyəti ilə təmin olunmalıdır. Yəni əgər Azərbaycan ərazi bütövlüyü təmin olunubsa və sərhəd bütövlüyündən danışırıqsa, deməli beynəlxalq hüquqa uyğun olaraq orda sərhəd xidməti olmalıdır.

Mən düşünürəm ki, bu da gələcəkdə öz həllini tapacaq. Monitorinq qrupunun bu sahədə əhəmiyyəti həddən çoxdur. Türkiyə tərəfi məhz beynəlxaq normaların tələblərinə uyğun olaraq bu məsələləri qoyacaq. Biz görünən bu problemləri aradan qaldırsaq, Azərbaycan müəyyən bir şəkildə öz məqsədinə yaxın olacaqdır. Düşünürəm ki, Monitorinq qrupunun yaradılması Ermənistan ərazisindən Naxçıvana çəkilən kommunikasiya dəhlizi ilə bağlı öz əksini tapacaq. Bundan sonra məsələlər də o istiqamətdə inkişaf edəcək. Bu məsələlərdə Rusiyanın Çinin, Türkiyənin maraqlarını nəzərə alınması, Azərbaycanın revanşist erməni ideyalarını üstələməyə imkan verəcək. Monitorinq qrupu da bəyannamədə əksini tapan Ermənistandan Naxçıvana dəhlizin açılmasını yaxınlaşdıracaq.

***- Şair müəllim, bəllidir ki, sülhməramlılar bir neçə gün ərzində hərbçilərin dislokasiya məntəqəsinin yerləşdiyi Xankəndi şəhərində Mərkəzin strukturunu, məqsəd və funksiyalarını, işinin təşkili qaydasını, eləcə də yerləşdikləri ölkənin mədəniyyətini, ənənələrini və xüsusiyyətlərini öyrəniblər. Nəzərə alınsa ki, Xankəndi və digər ərazilərimizə azərbaycanlılar qaytarılmayıb, o zaman yalnız ermənilərin olduğu məkanlarda bitərəfli aparılan monitorinqlərin nə əhəmiyyəti ola bilər?***

- Bundan sonra vəziyyət dəyişəcək. Bunun üçün Türkiyədə və Azərbaycanda qəbul olunan hüquqı baza hazırdır. İstənilən zaman Türkiyədən əlavə hərbçilərin gəlməsi və onların saylarının artırılması ilə bağlı qərar qəbul oluna bilər. Düşünürəm ki, Rusiya bunu bilir. Rusiya regionda Türkiyə nümayəndələrinin sayının artırılmasını istəmir. Ona görə də onlar öz vəzifə borclarını daha dəqiq yerinə yetirməyə məcbur olacaqlar.

Azərbaycanın qaçqın-köçkünlərinin öz yurdlarını qaytarılması məsələsinə gəlincə, bu həssas bir məsələdir. Düşünürəm ki, indiki zamanda azərbaycanlıların o yerlərə köçürüb təhlükəsizliyini təmin edə bilmiriksə, bu köçürülmə tezdur. Monitorinq qrupu vəziyyəti incələyəcək. Qaçqınlarımız öz yerlərinə köçürüləndən sonra onların təhlükəsizliyini qoruyacaq mexanizmlər işləyəndən sonra köçürmələr olacaq. Türkiyənin bu istiqamətdə də missiyası var.

Dövlət sərhədində Zəngilan, Qubadlı və Laçın istiqamətindən olan ermənilər Ermənistana köçürülürlər. Azərbaycan bu əraziləri öz nəzarətinə alır. Yəqin ki, Xankəndi şəhərində də bu istiqamətində işlər aparılacaq. Vəzifələrdən biri də budur ki, azərbaycanlılar hansı yaşayış ərazilərində yaşayıblar, onların həmin yerlərə köçürülməsi ilə bağlı baza yaradılsın. Bu şəraiti yarada bilsək sülhün bərqərar olunması üçün çox işlər görmüş olacağıq. Bununla da Azərbaycan ərazilərində olan müəyyən erməni qruplarının mənfur niyyətinin inkişaf etməsini əngəlləyə biləcəyik.

*Tahirə Qafarlı*

# İranın minatəmizləmə qrupu yaxın vaxtlarda Azərbaycana gələcək

## Bizim səfir

***Azərbaycanın işğaldan azad edilmiş bölgələrində tikinti-quruculuq işlərinə start verilib. Başda Türkiyə olmaqla, dost dövlətlərin bir çox bu sahədə Azərbaycana dəstək verməyə hazır olduğunu bildirib. Avropa ölkəsi Macarıstan bu məqsədlə 100 milyon dollar vəsait ayırdığını da açıqlayıb. Bu müstəvidə Azərbaycanın qapı qonşusu olan İranın da mövqeyini bilmək də çox maraqlı olardı. Düzdür, bu günlərdə İranın xarici işlər naziri Cavad Zərif Bakıya rəsmi səfəri zamanı haqqında danışdığımız məsələləri müzakirə etmiş və ölkəsinin tikinti-quruculuq prosesində iştirak etmək arzusunu dilə gətirmişdi.***



**Seyid Abbas Musəvi,**
İranın ölkəmizdəki səfiri

Təbii ki, Azərbaycan tərəfi onlara müsbət cavab verib. Bəs İran işğaldan azad edilmiş ərazilərimizin yenidən qurulmasında hansı töhfələri verə bilər? Bu suallara cavab almaq üçün İranın ölkəmizdəki səfiri Seyid Abbas Musəvi ilə söhbətləşdim. Baxaq görək, cənab Musəvi bu haqda nə deyir:

- Bildiyiniz kimi, İran Azərbaycanın ən böyük və strateji qonşularından biridir. Təbidir ki, İran və Azərbaycan xalqları arasında tarixi, dini və mədəni ortaqlıqlar səbəbindən azad edilmiş ərazilərin yenidən qurulmasında azərbaycanlı qardaşlarla əməkdaşlıq və yardım ölkəmiz üçün qonşuluq və insanlıq borcu hesab olunur. İranda texniki və mühəndislik sahələrində çox yüksək bacarıq və qabiliyyətlər var. Allahın bəxş etdiyi zəngin mənbələri nəzərə alaraq, İran azad edilmiş ərazilərin yenidən qurulmasında ən yaxşı və ən səmərəli şəkildə iştirak edə bilər.

*"İran azad edilmiş ərazilərin yenidən qurulmasında ən yaxşı və ən səmərəli şəkildə iştirak edə bilər"*

Bunlar Azərbaycan Hökuməti və xalqının etiraf etdiyi həqiqətlərdir. İran enerji sahələrində, o cümlədən hidroelektrik və istilik elektrik stansiyalarının inşası, su təchizatı sistemlərinin qurulması, elektrik enerjisi və şəhər qazı təchizatı sahələrində səmərəli iştirak edə bilər. Bundan əlavə, yaşayış massivlərinin və məktəblərin inşası, yol tikintisi, körpü tikintisi, dini və tarixi yerlərin, məscidlərin inşası və təmiri ilə bağlı sahələrdə Azərbaycana əhəmiyyətli kömək etməyə hazırdır.

***- Hazırda əsas problem ərazilərin minalardan tam təmizlənməsidir. İran ordusunun təcrübəli minatəmizləyən bölmələri mövcuddur, bu müstəvidə Bakıya təklif vermisinizmi? Nəzərə alaq ki, ilk gündən Türkiyə və Rusiya minatəmizləyənləri bölgədədirlər...***

- İraqın İrana qarşı səkkizillik müharibəsi ilə eyni vaxtda və müharibədən sonra İran müharibə bölgələrində çoxlu sayda minalarla qarşılaşdı. Minalardan təmizlənmə əməliyyatı, əməliyyat sahələrinin böyüklüyünə və minaların müxtəlif ölkələrinin istehsalı olduğu üçün - bunlar piyada əleyhinə, zirehli texnikalar əleyhinə və sair minalar idi - müxtəlifliyinə görə bir neçə il çəkdi. Bu sahədə nizamlı bölmələr təlim gördü. Texnika və avadanlıqların bir hissəsi ölkədə istehsal olundu, bir hissəsi də xaricdən alındı. Hazırda demək olar ki, İran İslam Respublikası bu sahədə dünyanın ən təcrübəli ölkələrindən biridir. İki ölkənin hərbi rəsmiləri arasında minalardan təmizlənmə qüvvələrinin göndərilməsi ilə bağlı danışıqlar davam edir və İran İslam Respublikasının minalardan təmizləmə qrupunun yaxın vaxtlarda Azərbaycana gəlməsi gözlənilir.

***- Vaxtından tez verilmiş sual olsa da, işğaldan azad edilmiş ərazilərimiz İranla 135 kilometr məsafədə həmsərhəddir. Bu bölgədə yeni sərhəd-keçid məntəqəsinin açılışı, məsələn, Xudafərin su anbarı və enerji stansiyası bölgəsində birgə idarələrin və sair yaradılması, gələcəkdə bu bölgədə sərhədyanı bazarın açılması və sair kimi məsələlər müzakirə mövzudur, yoxsa doğrudan da çox tezdir?..***

- Şübhəsiz ki, bu kimi məsələlər iki ölkənin gündəmindədir. Bununla yanaşı, bu məsələlərin yüksək əhəmiyyəti və hər birinin təkbaşına iki ölkə arasındakı ticarət və sərhəd əlaqələrinə təsirli ola biləcəyi nəzərə alınaraq, bu kimi məsələlər ekspertlər səviyyəsində araşdırılmalı, icra mexanizmləri iki ölkə arasında ortaq texniki-ixtisaslaşdırılmış işçi qruplarında müzakirə edilməlidir. Bu məsələ indi iki ölkənin müvafiq rəsmiləri arasında danışıqların gündəliyindədir.

***- Naxçıvanı Azərbaycanın əsas ərazisi ilə birləşdirəcək nəqliyyat-enerji dəhlizinin yaradılması üzərində iş gedir. İran bu dəhlizdə hansısa formatda iştirak edəcəkmi və ümumiyyətlə, İran bu dəhlizdən necə faydalanmağı düşür?***

- Bu məsələ ilə əlaqədar biz Azərbaycan Respublikasının möhtərəm Prezidenti İlham Əliyevin İran, Rusiya, Azərbaycan, Ermənistan, Gürcüstan və Türkiyə arasında altıtərəfli əməkdaşlıq platforması təklifi ilə razıyıq.

Bu layihə nəqliyyat, ticarət və enerji sahələrində həmin altı ölkə vasitəsilə regional əməkdaşlığın inkişafına əhəmiyyətli dərəcədə kömək edə bilər. Biz də bu layihəni reallaşdırmaq üçün Culfa dəmir yolunu sözügedən dəhlizə birləşdirərək, bu növ əməkdaşlıq əlaqələrinin genişləndirilməsində iştirak etməyə hazırıq.

*Vüsal Tağıbəyli*

# Ermənistan "sorosçular" adlanan silahlı dəstə yaradır

**Ermənistan "sorosçular" adlanan silahlı dəstə yaradır. Polis sistemində islahatlar çərçivəsində yaradılacaq qrupa 770 nəfərin daxil olacağı gözlənilir.**

Prosesi milyarder Corc Sorosun tapşırığı əsasında Daniel İnnosyan adlı bir nəfər koordinasiya edir. Onun özü "Facebook" səhifəsində yazıb ki, artıq dəstəyə üzvlərin cəlbi başa çatıb və onlar 5 aylıq kurslara cəlb olunublar: "Sorosçular Ermənistanda qanunçuluq və ədalət prinsiplərini qorumaqla, ölkədə baş verən proseslərdə vətəndaş cəmiyyətinin iştirakını təmin edəcəklər. Onlar iyun ayından etibarən Yerevanın küçələrində görünməklə, patrul xidmətini həyata keçirəcək". Qeyd edək ki, seçimin hansı kriteriyalar üzrə aparıldığı açıqlanmasa da, yeni dəstənin Ermənistanın Daxili İşlər Nazirliyinə tabe olmayacağı qətiləşib.

# Anna Akopyan ABŞ-da başını qaldıra bilmədi



**ABŞ-a səfər etdiyi məlum olan Ermənistan Baş nazirinin həyat yoldaşı Anna Akopyan Los-Anceles hava limanında həmyerliləri tərəfindən qəzəblə qarşılanıb.**

Urməni diasporunun nümayəndələri Akopyanı həyat yoldaşını vətənə xəyanətdə günahlandıran plakatlarla qarşılayıblar. Bu barədə Ermənistandakı erməni diasporunun nümayəndəsi Robert Marqaryan internetdə yayımladığı videoda məlumat verib. "Sputnik Ermənistan" Akopyanın doğum günündə ABŞ-a hansı məqsədlə səfər etdiyini öyrənməyə çalışsa da, onun köməkçiləri Ester Sahakyan və Alina Karapetyan zənglərə cavab verməyiblər. "Ali Xainin xanımı. Onu belə bir plakatla qarşılayıblar. O, başını aşağı salıb, qızarmış vəziyyətdə yoluna davam edib. Bilməlidirlər ki, getdikləri hər yerdə insanlar oxşar yazılar olan plakatlarla onları gözləyəcək",- deyə Marqaryan qeyd edib. Bundan əvvəl teleqram kanallarında Akopyan qızı ilə birlikdə başı aşağı vəziyyətdə mühafizəçilərinin müşayiəti ilə hava limanından necə çıxdığını göstərən bir video yayılmışdı.

# Sosial

## Sudan daha az istifadəyə məcburuq...

***Tarif Şurasının qərarı ilə dünəndən başlayaraq içməli suya görə qiymətlər qaldırıldı. Fevralın 1-dən etibarən bir kubmetr su təchizatının tarifi ƏDV daxil olmaqla əhali üzrə Bakı, Sumqayıt, Xırdalan şəhərləri və Abşeron rayonu üçün 70 qəpik, digər inzibati ərazi vahidləri üzrə 60 qəpik, tullantı sularının axıdılması xidmətinin tarifi isə ölkə üzrə bir kubmetr üçün 30 qəpik təşkil edir. Bu qərar ictimaiyyət, vətəndaşlar və ictimaiyyət nümayəndələri tərəfindən heç də birmənalı qarşılanmayıb. "Azərsu" ASC-nin İqtisadiyyat şöbəsinin rəisi Elçin Camalovun sözlərinə görə, tariflərin artırılmasında başlıca məqsəd, korporativ məqsədlərlə yanaşı, istehlakçılar tərəfindən suya israfçılığın qarşısının alınmasıdır.***

ASC-nin əsas məqsədi istehlakçılara içməli su təchizatıdır, amma biz görürük ki, istehlaka təchiz edilən içməli su digər məqsədlər üçün, məsələn, suvarma məqsədləri üçün və ya sənaye sahəsində istifadə olunur. Bu da suyun israfçılığın qarşısını alınmasında təbii ki, ən mühüm problemlərdən birinə çevrilir. ASC-nin şöbə rəisi əlavə edib ki, 2016-cı ildə enerji tariflərinin 50% artması da iqtisadi faktor kimi öz təsirini göstərib. ""Azərsu" ölkədə ən böyük enerji istehlakçılardan biridir. Nəzərə çatdıraq ki, 2016-cı ildə tariflər təzələnən zaman xidmət tarifləri 37% artmışdı. Enerji tariflərinin 50% artması, təbii ki, müəssisənin tariflərin artırılmasından daxil olan gəlir effektivliyinin 23,6%-ə salmışdı. Müvafiq qurumun əsaslandırmalarına baxmayaraq qiymət artımı ətrafındakı müzakirələr səngiməк bilmir. Qərarla bağlı ictimai-siyasi xadimlərin fikirlərinə nəzər salaq.

■ **Sabir Rüstəmxanlı, millət vəkili:**

- 30 illik işğala son qoyulub. Biz bu qələbə işinin sona qədər çatdırılmasına məsuliyyət daşıyırıq. Tarif Şurası benzinin qiymətini qaldırıb, dünən isə suyun qiyməti 2 dəfə artırılıb. Biz yaz sessiyasında Tarif Şurasını Milli Məclisə dəvət etməliyik. Hansı əsaslarla bu qərarların verildiyi bizə bildirilməlidir. Bununla bağlı dinləmələr keçirməliyik.

■ **Tahir Kərimli, deputat:**

- Bu gün Azərbaycanın üstündə kabus əmələ gəlib ki, bu da Tarif Şurasıdır. Heç kim bilmir ki, orada kimlər var. Gizli qərar verirlər. Bunların qəbul etdiyi qərarlar zəlzələ effekti verir. Biz Tarif Şurasının qərarlarına görə camaatın qabağına çıxa bilmirik. Konstitusiyaya əsasən, Azərbaycan dövlətinin ən ali məqsədi xalqın rifah halının yaxşılaşdırılması olmalıdır. Tarif Şurası xalqın rifah halını yüksəltməklə bağlı dövlətin ali məqsədini məhdudlaşdırır. Biz təcili Tarif şurasını ləğv etməliyik. Ya da Tarif Şurasının qərarları bizə məruzə olunmalıdır.

Əvvəllər xalq aprel ayını gözləyirdi ki, ucuzlaşma olacaq, indi əksi baş verir. Bu qərarlar cənab Prezidentin bu cür qələbə addımlarını kölgə altına alır.

■ **Erkin Qədirli, millət vəkili:**

- Tarif Şurasının qərarları büdcəyə müdaxilədir. Tarif Şurasında nazir müavinləri iştirak edir. Tarif Şurasının ləğv edilməsini demirəm, amma bu məsələ həllini tapmalıdır. Eləcə də müəyyən cərimə yığan qurumlar cərimələrin bir hissəsini özündə saxlayır. Bu da büdcəyə müdaxilədir. Parlamentdən kənar büdcəyə müdaxilə olmamalıdır. Lazım gələrsə, bununla bağlı Prezidentə də müraciət edək".

■ **Fazil Mustafa, millət vəkili:**

- Kommunal sahədə müəyyən tənzimləmələrə ehtiyac yaranıb. Məsələn, suyun, qazın qiymətiylə bağlı doğru izahat verilməlidir. Göründüyü kimi, məsələ qanunverici orqan təmsilçilərinin də narahatlığına səbəb olub. Müəyyən hesablamalara görə, müvafiq qurum keçən müddət ərzində məvaciblərin və pensiyaların artırılmasını əsas gətirsə də, suyun qiymətinin artması müəyyən məhsulların qiymətinə də təsir edəcək ki, bu da istehlak səbətində özünün mənfi təsirlərini büruzə verəcək.



*Azad Əliyev*

# Aktual

## Gənclər siyasətinə onların baxışı...

> *Azərbaycanda gənclər təşkilatlarının çoxu yaşlı nəsil tərəfindən idarə olunur*

> *Bütün təşkilatlar paytaxtda cəmlənib, rayonlar üzrə isə gənclər siyasəti çox zəifdir*

> *Prioritet məsələ, ilk növbədə, müasir tələblərə cavab verən təhsil imkanlarının genişləndirilməsi olmalıdır*

***Bu gün 2 fevral Gənclər Günüdür. Ölkəmizdə gənclər gününün tarixi, onlara hər zaman qayğı və diqqət göstərən Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Ulu Öndərin ikinci dəfə hakimiyyətə gəlişindən sonra Azərbaycanda gənclər siyasətinin təməli qoyulmuşdur. Ardınca isə dövlətin ən mühüm fəaliyyət istiqamətlərindən birinə çevrilmişdir. Elə bunun nəticəsidir ki, 1994-cü ildə, gənclər siyasətini həyata keçirən Gənclər və İdman Nazirliyi yaradıldı. Bu müddət ərzində gəncliyin sağlam inkişafı üçün xeyli işlər görüldü.***

2 fevral 1996-cı ildə isə, Ümumilli Liderin böyük dəstəyi ilə gənclərin 1-ci forumu keçirildi. 1997-ci ildən etibarən, prezidentin sərəncamı ilə, 2 fevral tarixi Azərbaycanda Gənclər Günü kimi qeyd olunmağa başladı. Bu siyasət Prezident İlham Əliyev tərəfindən bu gün uğurla davam etdirilir.

Bu gün ölkəmizdə 300-dən çox gənclər təşkilatları var. Say nə qədər çox görünsə də, yaranmış mənzərə heç də rəqəmlərlə ilə üst-üstə düşmür. Baxmayaraq ki, təşkilatların sayı çoxdur, lakin onlardan aktiv fəaliyyət göstərənləri olduqca azdır. Görəsən buna səbəb və ya səbəblər nələrdir? İndi ölkədə gənclər siyasəti gəncləri qane edirmi? Gənclər bu siyasəti nə cür görmək istəyər? Çatışmayan tərəflər və digər önəmli məqamlar gənclərin gözü ilə...

Hafta.az gənclərdən ibarət birliklərin əməkdaşları ilə həmsöhbət oldu.

■ **İlk olaraq "Sağlam Düşüncə" Gənclər Təşkilatının sədri Orxan Bayramov söylədi ki, hal-hazırda problem daha çox gənclər təşkilatlarındadır:**

"Bu gün ölkəmizdə çoxlu sayda belə təşkilatlar var. Adından da göründüyü kimi, gənclərdən ibarət birlik olmalıdır. Buna baxmayaraq, bizdə təşkilatların çoxu yaşlı nəsil tərəfindən idarə olunur. Bəzən də, təşkilatlar "Gənclər fondu"ndan, Qeyri Hökümət Təşkilatı (QHT) Şurasından layihələri qəbul edib, onu uğurla həyata keçirmək əvəzinə gələn pulu hədəfləyir. Bu da gəclərin səsinin eşidilməsinə mane olur. Tək bu təşkilatların özündə deyil, elə gənclər siyasətinin formalaşdırılmasında da gənclərin iştirakı önəmlidir.

Təşkilatın sədri Avropadan könüllülər qəbul etdiklərini, lakin viza məsələlərində problem yaşadıqlarını da söylədi:




"Onlar ölkəmizdə bir il müddətində könüllülük edə bilirlər. Vizanın alınmasında bir problem var ki, könüllü yalnız 6-aylıq oturum vizası alır. Bu proqramdan hər kəs ömründə yalnız 1 dəfə istifadə edə bilər. Təbii ki, könüllü də bu şansdan tam yəni, 1-il müddətində istifadə etmək istəyir. Bu baxımdan QHT-sektorunda ciddi boşluqlar var. Onlar aradan qaldırılmalıdır ki, təşkilatlar inkişaf etsin".

■ **Digər müsahibimiz isə "İşıq" İctimai Birliyinin rəhbəri, Azərbaycan Könüllü Təşkilatları İttifaqının Baş koordinatoru Mirzaur Hüseynli oldu.** Onun sözlərinə görə, hal-hazırda ölkədə gənclər siyasəti olduqca yaxşıdır. Azərbaycan Könüllü Təşkilatları İttifaqı yaradılması, təşkilatların bir birinə dəstəyi çox gözəldir. Lakin, Bakıdan kənarda könüllülük fəaliyyəti aşağıdır: "Bütün təşkilatlar paytaxtda cəmlənib, rayonlar üzrə isə gənclər siyasəti çox zəifdir. Buna səbəb Gənclər və İdman Nazirliyinin məsuliyyətsizliyi, yaxud da, bütün ictimai təşkilatların hamısının baş ofisinin sırf Bakıda yaradılması ola bilər. Bölgələrdə adı çəkiləcək böyük gənclər birliyi demək olar ki yoxdur. Yalnız "Regional İctimai Birliyi" və Asan Xidmətin özünün gənclər təşkilatı var ki, onlar rayonlarda fəaliyyət göstərir. Bununla da regionlardakı gənclər ictimai fəallıqdan və sosial tədbirlərdən geri qalır". M.Hüseynli deyir ki, hazırda çatışmayan cəhət, gənclərin tədbirlərə və təlimlərə marağının olmamasıdır. Belə ki, Azərbaycan gənclərinin dijital platformalardan istifadəsi çox zəifdir:

"Dünyada və ölkəmizdə ən yüksək platforma olan "YouTube"də gənclərimizin nümunə kimi göstərə biləcəyimiz böyük bir kanalı yoxdur, buna dəstək verilmir. Regionlarımızda yaşayan gənclərin problemi odur ki, rayon mərkəzində tədbir olur və kənddə yaşayan ora qatıla bilmir. Bu da nəqliyyatın olmamasından irəli gəlir. Bir çox hallarda gənclər keçirilən tədbirlərdən geri qalır. Digər məsələ isə ondadır ki, cavanların "PlayStation"a marağı daha çoxdur, nəinki tədbirdə iştirak edib burdan nə isə öyrənməyə... Prezidentin verdiyi tapşırıqlar olduqca yaxşıdır, 325-yə yaxın QHT olmasına baxmayaraq onlardan göz önündə yalnız 6-7-sini göstərmək mümkündür, çoxu ümumiyyətlə fəaliyyətini dayandırıb".

■ **Elə "Ümidli Gələcək" Gənclər Təşkilatının nümayəndəsi Nabil Seyidov da həmkarları ilə eyni fikirdədir. O da dövlətin yürütdüyü gənclər siyasətini yüksək qiymətləndirir:**

"Müstəqillik qazandığı gündən ölkədə gənclər siyasətinin formalaşdırılması və inkişaf etdirilməsi istiqamətində geniş işlər aparılıb. Bu işlər davam etdirilir. Prosesə nəinki Gənclər Və İdman Nazirliyi, hətta bütün nazirliklər, Dövlət qurumları, Qeyri-Hökumət təşkilatları, ictimaiyyət də qoşulub. İndi hamı çox gözəl dərk edir ki, ölkənin gələcəyi gənclərimizdir. Respublikamızın və vətəndaşlarımızın rifahı, onların bilik və bacarıqlarından asılıdır. Mövcud vəziyyəti nəzərə alaraq düşünürəm ki, ən mühüm prioritet məsələ, ilk növbədə, müasir tələblərə cavab verən təhsil imkanlarının genişləndirilməsi olmalıdır.

Xüsusilə də qeyri-formal təhsil və gənclər arasında liderlik bacarıqlarının inkişaf etdirilməsi prosesinə nə qədər erkən başlanılsa, o qədər yaxşı olar. Bununla yanaşı, innovativ yanaşmaların tətbiqi, texnologiyaların gənclər arasında aşılanması mövzusunda da gənclər arasında geniş təbliğat aparılmalıdır. Fikrimcə, digər vacib məqam isə əməkdaşlıqdır. Pandemiyanın varlığından asılı olmayaraq, gənclərin digər ölkələrdə olan həmkarları ilə şəbəkələşməsi, onlarla əməkdaşlıqların yaradılması zəruridir. Birgə layihələrin və tədbirlərin həyata keçirirlməsi, ən əsas isə bilik mübadiləsi çox önəmlidir". Bəli, sağlam gənclik uğurlu gələcəyin təməlidir. Ümid edirik ki, çiçəklənən Azərbaycanın uğurlu gələcəyi üçün sadalanan bütün problemlər tezliklə öz həllini tapacaqdır.

**Bayramınız mübarək olsun, Azərbaycan gəncləri!**

Torpaqlarımızın bütövlüyü uğrunda canını fəda edən bütün gənclərimizə isə Allah rəhmət etsin!

*Banu*

# sosial

## Şəhid ailələrinə yeni güzəştlər

**Azərbaycanda şəhid ailələrinin üzvlərinə yeni imkanlar yaradılması məqsədilə qanunvericiliyə dəyişiklik edilir. Bununla bağlı "Məşğulluq haqqında" qanuna dəyişiklik müzakirəyə çıxarılıb.**

Dəyişikliklərə əsasən, sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən şəxslərin dairəsinə şəhid ailəsinin üzvləri də aid edilir. Bundan sonra peşə hazırlığının, işsiz şəxslərin özünüməşğulluğunun və sosial iş yerlərinin təşkili zamanı şəhid ailələrinin üzvlərinə də digər həssas qruplarla birlikdə üstünlük veriləcək. Bununla yanaşı, dəyişikliyə əsasən, sosial müdafiəyə ehtiyacı olan qrup kimi 5 faizlik növbədənkənar işə götürülmə kvotası şəhid ailələrinin üzvlərinə də şamil ediləcək.



Son dövrlər dövlət qəbul etdiyi bir sıra qanunvericilik aktları ilə şəhid ailələri ilə bağlı təminatları həm sadələşdirir, həm də onların təminatlarını daha da artırır. Bu dəyişikliklə dövlət şəhid ailələrinin sosial təminatının daha da yaxşılaşdırılması məqsədini güdür. Qanuna dəyişikliklər birinci oxunuşda səsverməyə qoyularaq qəbul edilib.

## Bütün stansiya rəislərinin yerləri dəyişdirilib

**"Bakı Metropoliteni" QSC-nin, demək olar ki, bütün stansiyalarının rəisləri dəyişdirilib. Bu barədə qurumun rəisi Zaur Hüseynov əmr imzalayıb. Əmrə əsasən, 3 stansiyanın rəisləri istisna olmaqla 23 stansiyanın rəisi dəyişib.**

Xatırladaq ki, bundan əvvəl yanvarın 18-də "Bakı Metropoliteni"nin 3 stansiyasına yeni rəis təyin edilib. Belə ki, Z.Hüseynovun əmrinə əsasən, Yusif Şabanov metronun "Nizami" stansiyasının rəisi vəzifəsindən azad edilərək inşası yekunlaşmaq üzrə olan "8 Noyabr" stansiyasına rəis təyin edilib. "Nizami" stansiyasına rəhbərlik isə Vüsal Zeynalova həvalə olunub. Bundan başqa, metronun "Xalqlar Dostluğu" stansiyasının vəfat etmiş rəisi İlqar Əliyevin yerinə Arif Həsənli gətirilib. Sonuncu dəfə 2019-cu ilin sentyabrında Bakı metrosunun rəisləri kütləvi şəkildə yerdəyişmə etmişdi.



# XƏBƏR LENTİ

## Zabitin intiharı ilə bağlı cinayət işi başlanıb

**30 yanvar 2021-ci il tarixdə Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının "N" saylı hərbi hissəsinin hərbi qulluqçusu, kapitan Məmmədov Alim Nazim oğlunun həmin gün odlu silahdan atəş açmaqla özünü öldürməsi barədə Sumqayıt Hərbi Prokurorluğuna məlumat daxil olub.**

Respublika Hərbi Prokurorluğundan hafta.az-a verilən məlumata görə, daxil olmuş məlumat əsasında Sumqayıt hərbi prokurorluğunun əməkdaşları tərəfindən dərhal hadisə yerinə və meyitə baxış keçirilib, iş üçün əhəmiyyət kəsb edən predmetlər maddi sübut kimi götürülüb, izahatlar alınıb və digər hərəkətlər icra edilib. Fakt üzrə Sumqayıt hərbi prokurorluğunda Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 125-ci (özünü öldürmə həddinə çatdırma) maddəsi ilə cinayət işi başlanılaraq şahidlər dindirilib, müvafiq ekspertizalar təyin edilib və təxirəsalınmaz zəruri istintaq hərəkətləri həyata keçirilib. Hazırda istintaq davam etdirilir və qanunvericiliyin tələblərinə uyğun olaraq bütün tədbirlərin görülməsi təmin ediləcək.

---

## Yarım milyon manatlıq brilyant ələ keçdi

**Hava Nəqliyyatında Baş Gömrük İdarəsinin əməkdaşları tərəfindən külli miqdarda brilliant qaşların qaçaqmalçılıq yolu ilə ölkə ərazisinə gətirilməsinin qarşısı alınıb.**

Dövlət Gömrük Komitəsindən hafta.az-a verilən məlumata görə, belə ki, İstanbul-Bakı aviareysilə gələn Azərbaycan Respublikasının vətəndaşına məxsus çamadan Heydər Əliyev Beynəlxalq Aeroportunda rentgen aparatından keçirilən zaman monitorda şübhəli əşyaların təsviri müşahidə edilib.

Təkrar baxış zamanı çamadanda olan "Nesquik" və "İntense" kakao qutuları, "Baby Wipes" nəm salfet paketi və "Kenwood" markalı şirəçəkən maşının içində, ümumilikdə 10 ədəd sellofan büküm aşkar olunub. Həmin bükümlərin içərisindən isə müxtəlif ölçüdə brilliant qaşlar aşkara çıxarılıb. Bu predmetlər əvvəlcədən gömrük nəzarətinə təqdim edilməyib, şifahi, yazılı və ya elektron qaydada bəyan olunmayıb. Ədliyyə Nazirliyi Məhkəmə Ekspertizası Mərkəzinin rəyinə əsasən, aşkar olunan brilliant qaşların ümumi kütləsi 3901,60 karat (780,32 qram), orta qiyməti təxminən 485 min manat təşkil edir. Faktla bağlı araşdırma aparılır.

---

## Sabiq prokuror yenidən hakim qarşısında

**Bakı Ağır Cinayətlər Məhkəməsində Bakı Şəhər Prokurorluğunun sabiq idarə prokuroru Samir Nəsirov və onunla birlikdə təqsirləndirilən Fərid Eldarov və Mətləb Həsənovun cinayət işi üzrə hazırlıq iclası keçirilib.**

Hakim Faiq Qəniyevin sədrlik etdiyi iclasda anket məlumatları dəqiqləşdirilib. Baxış iclası fevralın 4-ə təyin edilib. Qeyd edək ki, təqsirləndirilən şəxslərə Cinayət Məcəlləsinin 312-ci (rüşvət vermə) maddəsi ilə ittiham irəli sürülüb. Xatırladaq ki, Bakı Şəhər Prokurorluğunun sabiq idarə prokuroru Samir Nəsirov bundan əvvəl də məhkum olunub. O, 2018-ci ildə vətəndaşlara qarşı 150 min manatdan çox dələduzluqda təqsirli bilinib.

Həmin vaxt Baş prokurorun əmri ilə prokurorluq orqanlarından xaric edilməklə xidməti araşdırma materialları üzrə cinayət işi başlanıb və barəsində həbs qətimkan tədbiri seçilib. Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə S.Nəsirova 2 il sınaq müddəti təyin edilməklə şərti cəza verilmiş və o, məhkəmə zalından azadlığa buraxılmışdı. Hökmdən dövlət ittihamçısının verdiyi apellyasiya və kassasiya protestləri təmin edilməyib.

---

## İska" və "Emoş" tutulub

**Gəncə şəhər Baş Polis İdarəsinin Cinayət Axtarış İdarəsinin əməkdaşları tərəfindən keçirilən əməliyyat-axtarış tədbirləri nəticəsində şəhər sakini, əvvəllər məhkum olunmuş "Emoş" ləqəbli Emil Rzayev idarə etdiyi avtomobillə birgə saxlanılıb.**

Daxili İşlər Nazirliyinin (DİN) Gəncə regional qrupundan verilən məlumata görə, E. Rzayevin idarə etdiyi avtomobilə baxış zamanı oradan naqan tipli odlu silah, onun üzərindən isə 1,16 qram narkotik vasitə olan heroin aşkarlanıb. Bundan başqa, Kəpəz rayon Polis İdarəsinin əməkdaşları isə kriminal aləmin üzvü olan şəhər sakini, 43 yaşlı "İska" ləqəbli İsmayıl İrzayevi saxlayıb. İ. İrzayevin üzərinə baxış keçirilən zaman ondan 1,88 qram heroin aşkar edilərək götürülüb. Əməliyyat axtarış tədbirlərinin davamı olaraq saxlanılan şəxsin yaşadığı ünvana da baxış keçirilib. Baxış zamanı evdən narkotik vasitə ilə yanaşı odlu silah da aşkar edilib. Hazırda odlu silahdan hər hansı bir cinayət əməlində istifadə olunub olunmaması istiqamətində araşdırmalar davam etdirilir. Faktlarla bağlı araşdırma aparılır.

Reportaj

*Dünəndən etibarən məktəbəhazırlıq, icmaəsaslı məktəbəqədər təhsil qrupları və ibtidai təhsil səviyyəsi üzrə tədris sanitar-gigiyenik tələblər nəzərə alınmaqla ənənəvi formada başlayıb. İbtidai siniflər üzrə əyani təhsil Bakı, Sumqayıt və Abşeronda həftədə 3 dəfə, digər bölgələrdə isə həftədə 4-5 dəfə olmaqla bərpa edilib. Məktəblərdə artıq bir neçə gün öncədən dərslərin bərpasına hazırlıq işlərinə başlanmışdı. Bəs görəsən uşaqlarını məktəbə yola salan valideynlər vəziyyəti nə cür dəyərləndiririrlər? Onlar övladlarının və öz sağlamlıqlarını qorumaq üçün hansı addımları atıblar? Hafta.az-ın əməkdaşı məktəblərdəki ümumi vəziyyətlə bağlı araşdırma etdi, valideynlər ilə həmsöhbət oldu.*



# Karantindən sonra məktəblərdə ilk gün



**Nərimanov adına 45 nömrəli tam orta məktəbin önündə övladını gözləyənlərdəndir. Ana deyir ki, qızımı məktəbə tam hazırlıqlı yola salmışam.**

"Çantasında spirt və "sulu dəsmal"ı var. Əminəm ki, hər ikisindən tez-tez istifadə edəcək. Yanına əlavə maska da qoymuşam ki, arabir dəyişsin. Bizə deyilib ki, sinif hər gün uşaq dərsi ilə məşğul olsun. Aşağı sinif olduğu üçün çox şeyi başa düşə bilmirdi. Elə uşaq özü də məktəbə gəlməyə can atırdı. Onsuz da virus elə birşeydir ki, hələ bir müddət məhv olub gedən deyil. Əlimdən gələn qədər başa salmışam ki, tez-tez spirtdən istifadə etsin, əlini silsin. İnşallah, bir problem yaranmaz, uşaqlar da dərslərini elə məktəblərdə öyrənərlər".



Əvvəlcə onu qeyd edək ki, daha öncədə olduğu kimi, məktəblərin önündə valideyn izdihamı yaşanırdı. Övladının dərsdən çıxmasını gözləyən ata-analar, deyəsən, öz sağlamlıqlarını unutmuşdular.

Məktəblərə gəldikdə isə, burada uşaqların növbə ilə girişi və çıxışına nəzarət edilirdi. Həyətə kənar şəxslər buraxılmır, bundan başqa hər bir təhsil ocağının girişində uşaqların hərarəti də ölçülür. Müəllimlər maskadan istifadə edirlər.

Valideynlərə gəldikdə isə, kimisi məktəblərin açılmasına sevincəkdir, kimisi də narahat.

■ **İlk həmsöhbətimiz Cəbrayılzadə Əlinin valideyni məktəblərin açılmasına sevinənlərdəndir. O deyir ki, evdə təhsil həm uşağa çətindir, həm də valideynə:**

"Övladımın çantasına spirt və dəsmal qoymuşam. Tapşırmışam ki, tez-tez əllərini spirtləsin. Maskasını isə ümumiyyətlə çıxarmasın. Daha əvvəldə pandemiya dövrü məktəbə gəldiyi üçün, bütün qorunma tədbirlərindən xəbərdardır. Müəllimləri də bu məsələyə çox diqqətlidir. İnanıram ki hər şey yaxşı olacaq".

■ **212 saylı məktəbin 2-ci sinif şagirdləri olan Raya və Zəhranın valideyni də deyir ki, içim rahatdır. Nə yaxşı ki, məktəblər açıldı:**

"Buna görə çox sevinirəm, çünki onlayn dərslərə uşaqlar laqeyid yanaşır. Elə olanda dərslər çətin gəlirdi, övladlarım heç nə öyrənə bilmirdi. Demək olar ki, məktəbdən də, dərslərdən də soyumuşdular. O ki qaldı təmizlik məsələsinə, maska taxıb, əllərini də tez-tez spirtləyirlər. Evdə də, sabunla yaxşıca yuyacaqlar".

■ **Valideyn Aytel xanım isə ənənəvi təhsilin bərpasına sevinsə də, virus təhlükəsinə görə çox narahat olduğunu dilə gətirdi:**

"Uşaq yoluxmasa belə, ən azından daşıyıcı ola bilər. Evdə yaşlı nənə-babası var. Üstəlik, anam şəkər xəstəsidir. Elə ən əsas da valideynlərimə görə çox narahatam. Yəqin ki, dərsdə maska taxmazlar. Çantasına sulu dəsmal və spirt qoymuşam. Onlarla da təhlükəni nə qədər sovuşdurmaq olar, bilmirəm. Öyrətmişəm ki, asqıran zaman ağzını və burnunu dirsək büküyü ilə örtsün. İnanmıram ki, uşaqlarla yaxın məsafənən çəkinə, axı balacadırlar. Elə biz valideynlər təhlükədən hər nə qədər xəbərdar olsaq da, yan-yana dayanmışıq. Ən əsas tapşırığım o olub ki, əlini hara vursa, ardınca mütləq spirtləsin".

■ **Digər müsahibimiz olan Gülbəz xanım da Nəriman**

dezinfeksiya olunacaq. Müəllimlərə də inanıram, əminəm ki, uşaqlara nəzarət edəcəklər. Sinif otaqları dezinfeksiya olunmasa belə, uşaqlar özləri partalarını spirtləyib daha sonra əyləşirlər. Elə digər valideynlərlə də bir neçə dəfə bununla bağlı danışmışıq. Onlar da mənim kimi övladlarına tapşırıq veriblər. İnşallah, qarşıdakı günlərdə bir problem yaranmaz. Çünki, məktəb bağlı olanda uşaq dərs oxumaq istəmir".

■ **Başqa bir valideyn isə deyir ki, evdə məktəblərin açılmasını eşidəndə keçirdiyim sevinc hissini necə ifadə edim bilmirəm:**

"Qızım Nuray 2-ci sinifdə oxuyur. Ondan balaca iki övladım var. Onsuz da bütün günü evdə başım qarışıq olur. Nuray onlayn dərsə qoşulanda balacalar imkan vermirdilər ki,

Bəzi valideynlər isə övladlarının məktəbə gəlməsinin əleyhinədir. Ləman xanımın sözlərinə görə, hər iki övladı ibtidai sinifdə təhsil alır. Lakin məktəbə gəlmələrini istəmir. Səbəb pandemiyadan ehtiyat etməsidir:

«Ona görə də bu gün gəlib ərazi yazdım. Övladlarımın gəlməməsi ilə bağlı iltizam imzaladım. Evdə daha yaxşı məşğul olacağıq. Məktəb rəhbərliyi tərəfindən heç bir çətinlik yaradılmadı. Bildirildi ki, seçim valideynlərindir. Onsuz da 15-20 gündən sonra yenə məktəbləri bağlayacaqlar». Apardığımız sorğulardan belə qənaətə gəldik ki, məktəblərdə sağlamlığın qorunması üçün lazımi tədbirlər görülüb. Valideynlər nə qədər nigaran görünsələr də, məktəblərin açılmasına sevinirlər.

✍ *Banu*

# "Bakcell" Bakıda yeni konsept mağazası təqdim etdi Ⓡ

**Bakcell Bakı şəhərində, Nəriman Nərimanov metro stansiyasının yaxınlığında yeni konsept mağazasını istifadəyə verib.**



Müştərilərin rahatlığını təmin etmək məqsədilə yeni dükan özündə nömrə və aksessuar satışı ilə yanaşı müştəri xidməti funksiyasını birləşdirərək ən innovativ "hər şey bir arada" konsepsiyası əsasında qurulub.

Təbriz küçəsi 108 ünvanında yerləşən yeni Bakcell mağazasının açılmasında əsas məqsəd abunəçiyə daha yaxın olmaqdır. Yeni mağaza müştəri-yönümlü yanaşmadan istifadə edərək "Bakcell"in yenilənmiş brend qaydalarına uyğun olaraq dizayn edilib, bu isə ziyarətçilər üçün isti bir atmosferin yaradılması üçün imkan yaradıb.

Müştəri və satış məsləhətçisinin bir arada olması və interyerin sadə zona bölgüsü sayəsində müştərilər üçün bütün lazımi məlumatlar daha əlçatan olub, müştəri xidməti təmsilçiləri və dükan əməkdaşları ilə ünsiyyət isə daha da asanlaşıb. Yeni dükanda "Bakcell"in bütün məhsul və xidmətləri ilə yanaşı geniş çeşiddə telefon aksessuarları da təqdim edilir. Bundan əlavə, müştərilər burada Bakcell müştəri xidmətlərindən rahatlıqla istifadə edə bilərlər.

"Biz daim çalışırıq ki, "Bakcell"in məhsul və xidmətlərini həm Bakı ərazisində, həm də Azərbaycanın bütün bölgələrində yaşayan abunəçilərimiz üçün daha əlçatan edək. Bu fəaliyyətin davamı olaraq bu gün biz böyük məmnuniyyətlə Bakı şəhərinin mərkəzində yeni konsept mağazasını təqdim edirik. Burada bütün xidmət prosesi "hər şeyin mərkəzində müştəri dayanır" yanaşması üzərində qurulub. "Müştəri yönümlülük" adlanan bu standartı Azərbaycanda tətbiq etmiş ilk şirkətlərdən biri "Bakcell"dir. Planımız biznesimizi sistematik qaydada rəqəmsallaşmaya doğru aparmaqla müştərilərə daha çox rahatlıq verməkdir. Müştərilərlə ünsiyyət prosesinin daha rahat və effektiv olması üçün maksimal dərəcədə rəqəmsallaşmalıdır. Biz bunu öz "Mənim Bakcellim" mobil tətbiqini istifadəyə verməklə əyani şəkildə nümayiş etdirmişik", deyə Bakcell şirkətinin baş kommersiya direktoru Reinhard Zuba bildirib.

Qeyd edək ki, dükanın açılışı günündən bir həftə ərzində keçiriləcək xüsusi kampaniya çərçivəsində yeni Bakcell mağazasında əldə olunan bütün aksessuarlara 20% endirim təqdim edilir.

Yeni Bakcell mağazasının müştərilərini mobil rabitə xidmətlərinə aid bütün məsələlərlə kömək etməyə hazır olan xüsusi hazirlanmış əməkdaşlar qarşılayacaq.

Bakcell şirkəti özünün üstün müştəri təcrübəsi və ölkədə ən yüksək sürətli mobil şəbəkəni Azərbaycanın bütün bölgələrində yaşayan müştərilərinə daha yaxın etmək məqsədilə həm mobil rabitə şəbəkəsini, həm də müştəri xidməti və satış şəbəkələrini genişləndirməyə davam edəcək. Şirkət bu ilin sonunadək bir neçə yeni mağazanın açılışını planlaşdırıb.

# "Azercell" Biznes korporativ müştəriləri üçün yeni limitsiz internet təqdim edir Ⓡ




**Mobil internetə günbəgün artan tələbatı nəzərə alan Azercell Biznes korporativ abunəçiləri üçün ölkədə ilk dəfə tamamilə limitsiz internet trafikinə malik unikal təklifi təqdim edir.**

Korporativ abunəçilərin biznes ehtiyaclarını qarşılamaq məqsədilə hazırlanan yeni GigaMax limitsiz internet paketləri sizə yüksək sürətlə və minimal gecikmə təminatı ilə internetdən istifadə etməyə, iri həcmli faylları yükləməyə və endirməyə, eləcə də, videokonfranslar keçirməyə imkan verir. Limitsiz İnternet paketləri trafikin həcmi ilə bağlı heç bir narahatlıq keçirmədən əlavə xərcsiz sadə və bəlli ödənişlə internetdən faydalanmaq deməkdir.

Ölkədə ilk dəfə Azercell Biznes tərəfindən təqdim olunan bu yeni məhsul mobil internetə olan fərqli tələblərin təminatı məqsədilə abunəçilərə 3 növ internet paketində təklif olunur:

GigaMax - sürəti 1Mbps gədər olan sərfəli və limitsiz internet paketi abunəçilərə aylıq cəmi 9.90 AZN-ə təklif olunur. Bu paket rahat şəkildə internetdə müxtəlif axtarışlar, onlayn yazışma proqramları, elektron poçtun idarə olunması və internetlə bağlı digər əsas biznes ehtiyaclarının qarşılanması üçün ideal seçimdir. GigaMax+ istənilən yerdə daima ünsiyyətdə olmaq və işinizə nəzarət etmək üçün güvənə biləcəyiniz limitsiz internet paketidir. Bu paket aylıq cəmi 19.90 AZN ödəməklə sizə 5Mbps sürətə gədər internetdən faydalanmaq imkanı verir. GigaMax+ müxtəlif iri həcmli faylların paylaşılması və yüklənməsi, eləcə də, biznes səhifənizin sosial şəbəkələrdə idarə olunması üçün çox əlverişlidir. GigaMax Pro - işinizin bütün tələblərini tam qarşılayan maksimal sürətli limitsiz internet paketi ayda cəmi 49.90 AZN müqabilində sizi ən yüksək sürətli və limitsiz internetlə təmin edir. Bu paket daxilində korporativ abunəçilər işlərinin uğuru üçün mobil internetin verdiyi bütün imkanlardan istənilən qədər yararlana bilər.

İndi Azercell Biznesin korporativ abunəçiləri özünə uyğun Limitsiz İnternet paketini seçərək yüklənən data həcmini düşünmədən sərhədsiz internet imkanlarından maksimum yararlanacaq. Belə ki, internetlə bağlı məhdudiyyətlərin olmaması sizə trafikin həcmi ilə bağlı heç bir narahatlıq keçirmədən mobil internet xərclərinə nəzarət etməklə işinizi rahat şəkildə idarə etmək imkanı verəcək. Gigamax limitsiz internet paketlərini seçməklə Azercell Biznes abunəçiləri öz bizneslərinin daha da rəqəmsallaşmasına səmərəli və effektiv şəkildə dəstək verə biləcəklər.

# Trampın kürəkəni də Nobelə namizəddir

**ABŞ-ın keçmiş Prezidenti Donald Trampın kürəkəni Cerad Kuşner və müavini Avi Berkoviç Nobel Sülh Mükafatına namizəd olublar.**

Onların İsrail, BƏƏ, Mərakeş, Sudan, Bəhreyn arasında normallaşma müqavilələrində (İsraillə ərəb ölkələrinin sözügedən anlaşmasına 3 səmavi dində adı hallanan İbrahim Peyğəmbərə ithafən "İbrahim anlaşmaları" da deyilir) əsas rol oynadıqları qeyd olunub. Kuşner mövzu ilə əlaqədar açıqlamasında oktyabr ayında veriləcək mükafata namizəd göstərilməsindən qürur duyduğunu bildirib.

Qeyd edək ki, Vikiliksin qurucusu Culian Assanj, Donald Tramp, Sərhədsiz Reportyorlar (RSF) və Belarusun müxalifət lideri Svetlana Tixanovskayanın rəhbərlik etdiyi müxalifət qrupu "Nobel"ə namizəd göstərilib. 2018-ci ildə ABŞ-dan olan 18 Respublikaçı konqresmen tərəfindən Trampın Nobel Sülh Mükafatına namizəd göstərilməsi üçün Nobel Komitəsinə bir məktub göndərilib. Məktubda Nobel Sülh Mükafatını "Trampın Koreya müharibəsini bitirmək, Koreya yarımadasının nüvəsizləşdirilməsi və bölgəyə sülh gətirməsindəki işlərinə görə" almalı olduğu bildirilmişdi.

## GÜNÜN FOTOSU



Çarli Çaplin Pakistanın Pisavar küçələrində....

## Gənclər siyasətinə onların baxışı...

**Nabil Seyidov,**
"Ümidli Gələcək" Gənclər Təşkilatının nümayəndəsi

Prioritet məsələ, ilk növbədə, müasir tələblərə cavab verən təhsil imkanlarının genişləndirilməsi olmalıdır. Səh. 7

## STATİSTİKA



■ Dünyada əhalisinin sayı 1 milyondan çox olan şəhərlərin ümumi sayına görə 1-ci yerdə Çin dayanır. Müxtəlif qiymətləndirmələrə görə, bu cür şəhərlərin sayı 60-200 aralığındadır. İkinci yerdə Hindistan gəlir - 54 milyonçu şəhər.

■ Dünyada ərazisinə görə ən böyük şəhər Çinin Çunüin şəhəridir. Moskva isə Avropanın ən böyük şəhəridir.



Səh. 4

# Kişilərə qarşı zorakılıq